

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## COP29: postsovet məkanında ilk dəfə Azərbaycanda




5

SƏS

№ 135 (7060)

31 iyul 2024-cü il.
Qiyməti 60 qəpik

# Bakıda yaşıllaşdırma və quruculuq işləri genişləndirilir



2

Prezident İlham Əliyev Bakıda "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub

# Makronun və Fransanın güzgüsü, yaxud BİABIRÇILIQ ŞOUSU




3

## Harris hücuma keçir və...



11

## Bakıda Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 97-ci ildönümü qeyd edilib



7

## Azərbaycanda övladlığa uşaq götürmək prosesi necə həyata keçirilir?



8

## Bitməyən qovğa və ya mahiyyəti anlaşılmayan hərəkat - FEMİNİZM



15

## Rüşvət qida təhlükəsizliyinə güc gəlirsə...



4



# Bakıda yaşıllaşdırma və quruculuq işləri genişləndirilir

## Prezident İlham Əliyev Bakıda "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına parkda görülən və həyata keçiriləcək işlər barədə məlumat verdi. Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda salınan yeni parkdır.***

"Antena" parkı kimi tanınan bu ərazi əvvəllər baxımsız vəziyyətdə olub. İstirahət parkının yenidən qurulması və bərpası ilə əlaqədar bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb. Qeyd olundu ki, parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və həmin binada bərpa işləri aparılacaq.



Yenidən qurulan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunur. Həmçinin burada 2 fəvvarə də quraşdırılacaq. Bu da istirahət məkanına əlavə gözəllik verəcək.

Müasir istirahət kompleksinin ərazisinin 13,8 hektarında yaşıllıq sahələri salınacaq. Burada işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulacaq. Parkda piyada və velosiped yolları çəkiləcək, uşaq-əyləncə və idman meydançaları yaradılacaq. Bildirildi ki, yenidən qurulan parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirəcək tunelin də inşasına başlanılıb.

Dövlətimizin başçısına, eyni zamanda, Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Binə qəsəbəsi ərazisində yeni salınmış istixanası barədə də məlumat verildi. Qeyd olundu ki, istixanada 1 milyonadək gül yetişdiriləcək. Bu da ölkəmizə gül idxalının həcmini əhəmiyyətli dərəcədə azaltmağa imkan verəcək. Yenidən qurulan park, həmçinin Azərbaycan dövlətinin ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması, o cümlədən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində gördüyü işlərə daha bir töhfə olacaq.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında Sərəncam imzalayıb.




# Makronun və Fransanın güzgüsü, yaxud BİABIRÇILIQ ŞOUSU

***Adətən idman yarışları, çempionatlar, olimpiadalar idman bayramı kimi qəbul edilir və insanları, millətləri və dövlətləri həm bir-birinə tanıdır, həm də daha da yaxınlaşdırır. Həmçinin, idman yarışlarına, olimpiadalara ev sahibliyi edən ölkələr həmin yarışların yüksək səviyyədə keçirilməsinə əvvəlcədən hazırlıq görür. Belə ki, hansısa xoşagəlməz halların baş verməməsi üçün öncədən təmizlik işləri görülür, qonaqların yerləşəcəyi ərazilər müəyyənləşdirilir, onların təhlükəsizliyinin təminatı üçün tədbirlər həyata keçirilir ki, Fransanın hazırda qarşılaşdığı rüsvayçılıqla, biabırçılıqla qarşılaşılmasın.***

## Biabırçılıq Fransanın da, onun lideri Makronun da alnına yazılmış oldu

Məlum oldu ki, Fransa qapılarını açıb cəmi 10 milyonadək turisti qəbul etməyə hazır deyilmiş. Bəlli oldu ki, bu Avropa ölkəsində nə qonaqların təhlükəsizliyi, nə təmizlik, nə idman bazaları, nə də yarışların keçiriləcəyi yerlərədək heç nə hesaba da, nəzərə də alınmayıb. Bu yekəlikdə Avropa ölkəsində qonaqların çantalarının oğurlanması da, otel və qonaq evlərində çarpayıların yararsızlığı da həmin ölkə üçün əsl biabırçılıqdır. Üstəlik, yarışların keçirildiyi yerə idmançıların özlərinin belə uzun-uzadı yol qət etmələri əsl rüsvayçılıqdır ki, bunu Fransa əvvəlcədən də özü üçün rəva bilibmiş. Ortada olan faktlar təsdiq edir ki, Paris nəinki qonaq qarşılamağa hazır deyilmiş, bu ölkənin qonaq qarşılamaq mədəniyyəti belə yox imiş. Hər halda, bunun da adı biabırçılıqdır və bu biabırçılıq Makronun da, Fransanın da əsl siması, güzgüsü olaraq yadda qadı. Heç şübhəsiz ki, Yelisey sarayının qonaqlara biganə yanaşmasını çətin ki, dünya ictimaiyyəti unuda və qonaqların təhlükəsizliyindən tutmuş, natəmizliyə, saymazlığa qədər belə bir biabırçılıq Fransanın da, onun lideri Makronun da alnına yazılmış oldu.

## Bu Olimpiya Oyunları transseksualların, transvestitlərin çıxışı ilə ikrah doğurmaya bilməzdi

Olimpiya Oyunlarının açılış mərasimində transseksualların və transvestitlərin çıxışı dünyadakı xristian dindarlarının dəyərlərinə lağ edən bir şou olaraq iştirakçıların yaddaşına yazıldı. Dünyanı bürüyən fəlakətlər fonunda məhz 12 milyard ABŞ dolları sərmayə qoyulmuş bu Olimpiya Oyunları transseksualların, transvestitlərin çıxışı ilə ikrah doğurmaya bilməzdi. Avropanın düz ortasında dəhşətli, irimiqyaslı qanlı müharibə getdiyi bir zamanda, bu müharibə fonunda ölən ukraynalıların və rusların sayı artıq 1 milyon həddinə yaxınlaşdığı bir məqamda, Yaxın Şərqdə isə, üçdə biri uşaq olmaqla, 40 mindən çox fələstinlinin öldürüldüyü vaxtda, minlərlə insanın bombalar və raketlər altında həlak olduqları halda, Olimpiya Oyunlarının fransalı təşkilatçıları idman yarışlarının, olimpiadanın ruhunu rəhbər tutaraq, sülh çağırışı etmək və günahsız həlak olanların ruhlarına dua etmək əvəzinə, transseksualların, transvestitlərin şousunu nümayiş etdirirlərsə, bu, elə Makronun və Fransanın güzgüsü olaraq qəbul edilir.

## "Qəbul olunmaz hörmətsizlik, biabırçılıq və xristianlara qarşı təhqir"

Mühafizəkar düşərgədə də mənfi reaksiya gözlənilən idi. Diqqətə çatdıraq ki, Donald Trampın fəal tərəfdarlarından biri olan amerikalı milyarder Elon Musk özü də "xristianlara qarşı həddindən artıq hörmətsizlik" ifadəsini təsadüfi olaraq işlətməyib. La Liqanın prezidenti Xavyer Tebas də özünəməxsus şəkildə fikir bildirib. "Qəbul olunmaz, hörmətsizlik, biabırçılıq! Paris Oyunlarından bu şəkildə istifadə etmək xristianlara qarşı təhqirdir", deyə bildirilən fikirlər heç də əbəs yerə və mənasız şəkildə ola bilməz. Görünən odur ki, Fransa üçün elə xristian dini də heç bir dəyər və əhəmiyyət kəsb etmirmiş və dini inanc, dəyərlər bu ölkə üçün də, onun prezidenti üçün də sonuncu dərəcəlidir. Açıq-aydın şəkildə müşahidə olunur ki, Makron məhz pula, hər dəfə açıqlandığı zaman daha artıq şəkildə göstərilən məbləğə, sonuncu dəfə də artıq 11 milyard avro olaraq bildirilən vəsaitə sitayiş edirmiş.

## Biabırçılıqda iştirakdan imtina etməkdə hər kəs haqlıdır və doğru addım da atmış olub

Xüsusilə diqqətə çatdıraq ki, bu yaxınlarda keçirilən parlament seçkilərinin nəticələrindən sonra Fransa lideri öz imici ilə bağlı narahatlıq keçirdiyi artıq özünü göstərir. Məhz bu narahatlığın fonunda, öz məhv olmuş imicini bərpa etmək üçün Olimpiadadan istifadə etmək istəyən Emmanuel Makron olimpiadadan nəinki daxili siyasi məqsədlər üçün, hətta xarici siyasi məqsədləri üçün də yararlanmaq istəyib, amma buna nail ola bilməyib. Qeyd etmək yerinə düşərdi ki, "Paris 2024"-ün açılış mərasimi son dərəcə qeyri-populyar tədbirə çevrilib, çünki dünya siyasi liderlərinin iştirakı baxımından bu, heç də Makronu, Fransanı qane edə bilməz. Bu yerdə nəzərə çatdıraq ki, ABŞ, Böyük Britaniya, İtaliya, Çin, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və digər ölkələrin liderləri Olimpiya Oyunlarına gəlməyiblər. Açılış mərasimində müsəlman dövlətlərindən yalnız Qətər rəhbərliyi iştirak edib. Latın Amerikası ölkələrindən isə bir dənə də olsun lider Parisə gəlməyib. Əslində, belə bir hal bir Avropa dövləti üçün biabırçılıqdır və Makronun da, Fransanın da güzgüsü sayıla bilər. Çünki sadalanan ölkələrinin liderlərinin gəlməməsinin səbəbkarı da elə Fransa və şəxsən onun prezidenti Makron hesab olunur və bunun da adı biabırçılıqdır. Gey şousunun təşkilatçıları 33-cü Yay Olimpiya Oyunlarına görə biabırçı durumu özləri yaradıblar və bu biabırçılıqda iştirakdan imtina etməkdə hər kəs haqlıdır və doğru addım da atmış olub.

## Fransanın, Makronun və onun hakimiyyət komandasının əsl biabırçı siması

Nəzərə çatdıraq ki, Braziliyanın əfsanəvi futbolçusu, dünya şöhrətli Ziko Fransanın paytaxtı Parisdə qarət edilib. Dünya əfsanəsi kimi yanınan futbol ulduzunun, 71 yaşlı keçmiş yarımmüdafiəçinin 420 min avro dəyərində portfeli oğurlanıb. Fransaya məxsus olan "Le Parisien" nəşri özü bu barədə məlumat yayıb və məlumatda qeyd olunur ki, dünyaşöhrətli Zikonun oğurlanan portfelində dəyərli əşyaları, bahalı saat, zinət əşyaları, brilyantlar və nağd pul olub. Argentinanın Olimpiya futbol komandasının futbolçusu, Braziliyanın "Botafoqo" klubunun cinah oyunçusu Tiaqo Almadanın da şəxsi əşyaları, saatı, zinət əşyaları Fransanın Sent-Etyen şəhərindəki stadionun soyunub-geyinmə otağından oğurlanıb. Mətbuat səhifələrində yayılan məlumata görə həmin futbolçuya da belə oğurluğa görə 50 min avro dəyərində ziyan dəyib. Belə görünür ki, Turistlərin təhlükəsizliyini, onların rahatlığını təmin etməli olan, lakin heç də təmin etməyən təşkilatçıların özlərinin də oğrulardan qətiyyən fərqi yoxx imiş. Eyni zamanda, Fransa hakimiyyətinin özünün də olimpiya oyunları ilə bağlı ölkəyə səfər etmiş turistlərə münasibətdə oğurluğa biganəliyi, həmin ölkə hakimiyyətinin oğrulardan fərqli olmadıqlarını təsdiqləyir. Çünki belə bir təəssürat yaranır ki, elə bil olimpiadada oğurluq edən oğurlarla yanaşı, onlara şərait yaradan Fransa dövləti də sanki qazanc güdürmüş. Hələ, Parisdə Olimpiadanın açılış mərasimi ərəfəsində 25 yaşlı avstraliyalı qadın turistin şəhərin mərkəzində, məşhur "Moulin Rouge" restoranın yaxınlığındakı kababxana restoranında afrikalı olduğu güman edilən 5 kişi tərəfindən zorlanması hadisəsi isə, tamamilə böyük bir rüsvayçılıq və biabırçılıqdır.

## Qərəzli mövqe sərgiləndiyi üçün rəsmi açılış mərasimi Fransanın biabırçılıq şousu kimi yadda qaldı...

Bildiyimiz kimi, Fransanı Azərbaycan üçün düşmən dövlətə çevirən prezident Emmanuel Makronun nə istədiyi də, ölkəmizlə bağlı qərəzli, düşmən mövqeyi də bir daha ortaya çıxıb və bu, özünü olimpiya oyunlarının rəsmi açılışı mərasimində də göstərib. Yenə də müşahidə olunub ki, rəsmi Paris və oyunların təşkilat komitəsi Azərbaycana qarşı təxribata xüsusi yer ayırıbmış. Daha dəqiq desək, Olimpiya Oyunlarının açılışını göstərən Fransanın "Fr2" telekanalının efirində azərbaycanlı və erməni idmançıların keçidi zamanı təxribatçı ifadələr səsləndirilib. "Ermənistan, bizim erməni dostlarımız, tarixən fransızların qəlbinə yaxın olan ölkə", - deyə canlı yayımda "Fr2" kanalının aparıcısı Ermənistan oyunçuları keçən zaman məkrli fikirlər səsləndirib. Eyni zamanda o, yəni həmin aparıcı Azərbaycanın milli olimpiada komandası keçən zaman isə ölkəmizi "ərazi məsələsində Ermənistanla toqquşan Qafqaz respublikası" kimi təqdim edib. Olimpiya kimi humanist, barışcıl yarış zamanı Fransa hakimiyyətinin məkrli niyyət güdməsi bu ölkə hakimiyyəti üçün, onun lideri üçün, ümumilikdə Fransa üçün əsl biabırçılıqdır. Amma etiraf edilməlidir ki, bu addım nə ilkdir, nə də son və bu da o deməkdir ki, müşahidə edilən Fransanın güzgüsüdür. Bu güzgüdə isə görünən ancaq biabırçılıqdan başqa bir şey deyil. Deməli, keçirilən yarış, Olimpiya Oyunları adı altında olan idman yarışı, sadəcə olaraq, Fransanın biabırçılıq şousu kimi yadda qaldı...

***İnam Hacıyev***

# Baş nazir Əli Əsədov İran Prezidentinin andiçmə mərasimində iştirak edib

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Baş nazir Əli Əsədov iyulun 30-da İran İslam Respublikasının yeni seçilmiş Prezidenti Məsud Pezeşkianın andiçmə mərasimində iştirak edib. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.



# Azərbaycanda dinlərarası vəhdət mövcuddur



Azərbaycan dövlətinin özünəməxsus dini modeli mövcudur. Dinə münasibət dövlət maraqlarına söykənir. Azərbaycan Respublikasının Konstitusiyanın 7-ci maddəsinin I bəndinə görə, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Ölkəmizdə əhalinin 90 faizini müsəlmanlar təşkil etsə də, digər dinin daşıyıcıları da sərbəst, heç bir ayrı-seçkiliyə yol vermədən, bir ailənin doğma övladları kimi fəaliyyət göstərirlər. Bu baxımdandır ki, Azərbaycan dünyada dini tolerantlığın nümunəvi mərkəzi hesab olunur. Heç zaman Azərbaycanda dini zəmində anlaşılmazlıq olmayıb. Bütün dinlərin inanclı insanları sərbəst fəaliyyət göstərməklə, müstəqil Azərbaycan dövlətinin inkişafına öz töhfələrini verməyə çalışırlar. Bu barədə Prezident İlham Əliyev Gəncədə "İmamzadə" dini mədəniyyət abidəsinin yenidənqurma və əsaslı bərpadan sonra açılışı zamanı çıxışında demişdir: "Azərbaycan müstəqillik dövründə həmişə çalışıb ki, müsəlman aləmində birlik, həmrəylik daha da möhkəm olsun. Bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlər keçirilmişdir. İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun xətti ilə onlarla tədbir keçirilmişdir.

Deyə bilərəm ki, bu gün müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində Azərbaycan və onun siyasəti çox böyük rəğbətlə qarşılanır. Biz bundan sonra da çalışacağıq ki, öz siyasətimizlə, o cümlədən diplomatik səylərlə müsəlman ölkələri arasındakı ixtilafları aradan götürək, gərginliyi azaldaq və bu, bizim borcumuzdur. Biz bunu belə qəbul edirik. Azərbaycanda bütün müsəlmanlar bir ailə kimi yaşayırlar. Tarixdə Azərbaycanda heç vaxt məzhəbçilik zəminində heç bir məsələ olmamışdır. Kiçik anlaşılmazlıq belə olmamışdır, olmamalıdır və olmayacaqdır. Bunun bariz nümunəsi bu yaxınlarda Heydər Məscidində bütün müsəlmanların vəhdət namazı qılmasıdır".

**İşğaldan azad edilən ərazilərimizdə dağıdılan məscidlərimiz, tarixi abidələrimiz yenidən bərpa olunur**



Bəli, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Binəqədi rayonunda 12 min kvadratmetr sahədə iki minə yaxın insanın ibadət etməsinə imkan yaradan "Heydər Məscidi" istifadəyə verilib. "Heydər Məscidi"ndə sünnə və şiə məzhəbindən olan inanclı insanlar birgə vəhdət namazları qıla bilirlər. Bunu özü ölkəmizdə dövlət-din münasibətlərinin çox yüksək səviyyədə qurulmasının daha bir ifadəsidir. Ümumiyyətlə, son 20 il ərzində 2 minə qədər məscid tikilib və yaxud təmir edilib. Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı şəhərindəki "Cümə" məscidinin, Gəncə şəhərindəki "İmamzadə" dini ibadət mərkəzinin yüksək səviyyədə təmir-bərpa işləri aparıldıqdan sonra inanclı insanların istifadəsinə verilib. Prezident İlham Əliyev tarixi çıxışlarının birində demişdir: "Biz öz müqəddəs dinimizə - İslam dinimizə sadiq olan xalqıq. Biz İslam dəyərlərini dünyada təbliğ etməliyik və bu məqsədlə Azərbaycan çox böyük işlər görür - həm Azərbaycan dindarları, həm Azərbaycan dövləti". İşğaldan azad edilən ərazilərdə ermənilərin 30 il ərzində dağıdıb, viran etdiyi tarixi abidələr, məscidlər, ziyarətgahlar yenidən təmir və bərpa edilir. Şuşada Yuxarı Gövhərağa məcsidi, Aşağı Gövhərağa məscidi, Saatlı məscidi təmir-bərpadan sonra istifadəyə verilib. Fateh Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə hazırda Şuşa şəhərində daha bir böyük məscid tikilir. Eyni zamanda Zəngilanda. Ağdamda, Suqovuşanda, Hadrutda və digər azadlığına qovuşan torpaqlarımızda dağıdılan məscidlərin yenidən təmir tikinti işləri aparılır. Bütün bunlar Azərbaycan Prezidenti, Fateh Sərkərdə İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəni irsimizə böyük diqqət və qayğısının təzahürüdür, milli-mənəvi dəyərlərimizin qorunmasına töhfəsidir. Təbii ki, qədirbilən xalqımız Prezident İlham Əliyevin dini abidələrin bərpasına, həmçinin yeni məscidlərin inşasına böyük diqqət göstərməsini Ona minnətdarlıq etməklə nümayiş etdirirlər.

**"Məscid və ziyarətgahlarımız bəzi insanlar tərəfindən qəsdən, qərəzli şəkildə təhqir olunur"**

Təəssüf hissi ilə qeyd olunmalıdır ki, kənardan sifariş alan elə məxluqlar var ki, müxtəlif yaramaz əməlləri və hərəkətləri, sosial şəbəkələrdə paylaşımları ilə mömin insanların heysiyyatına toxunmağa çalışırlar. Xüsusi ilə Məhərrəm ayında bu cür fəaliyyətə daha çox üstünlük verilməsi ölkədə dini durumu pozmağa, qarşıdurma və narazılıqlar yaratmağa yönəldilib. Düzdür bu cür cəhdlər nəticəsiz qalacaq, Çünki Azərbaycanda insanlar kifayət qədər dini savada və elmi biliklərə malikdir. Lakin təxribatlara yol verənlər cəzasız qala bilməz. Hüquq-mühafizə orqanları təcili və təxirəsalınmaz tədbirlər göstərməli və dini durumu pozmağa cəhd edənlər ifşa edilərək, layiq olduqları cəzanı almalıdır. Məsələdən Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, İçərişəhər "Cümə" məscidinin axundu, ilahiyyat elmləri doktoru, Hacı Surxay Məmmədli də narahatdır. O bizimlə söhbətində bildirdi ki, Azərbaycanda bütün dinlərə və məzhəblərə hörmətlə yanaşılıb və onların ibadətləri üçün münbit şərait yaradılıb: "Bismillahir Rahmənir Rahim. Azərbaycan zaman-zaman, tarix boyu ənənəvi məzhəblər diyarı, tolerantlıq nümunəsi olmuşdur. Azərbaycanda bütün dinlərə və məzhəblərə hörmətlə yanaşılıb və onların ibadətləri üçün münbit şərait yaradılıb. Əfsuslar olsun ki, son zamanlar bir kəsim təxribatçılar ölkə Prezidenti İlham Əliyev tərəfindən təmir və bərpa edilən, eyni zamanda inanclı insanlar tərəfindən hörmət və ehtiramla ziyarət olunan məscid və ziyarətgahlarımız bəzi insanlar tərəfindən qəsdən, qərəzli şəkildə təhqir olunur, cahil adlandırılır".

Hacı Surxay Məmmədli onu da bildirdi ki, heç bir elmi və dini əsası olmadan bu cür təhqirlər və ittihamlar xüsusilə Məhərrəm ayında ölkədə dini durumu pozmağa, təfriqə yaratmağa yönəldilib: "Buradan bütün dindarlara, inanclılara səslənirəm: Bu kimi təxribat hallarına heç bir fikir bildirməsinlər. Çünki Azərbaycan hüquqi dövlətdir. İnanıram ki, hüquq - mühafizə orqanları səsimə səs verib belə təxribatçı ünsürlərin qarşısını alıb ölkədə dini durumun pozulmağa cəhd edənlərin ciddi şəkildə cəzalandırılmasını təmin edəcəklər".

***İLHAM ƏLİYEV***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Rüşvət qida təhlükəsizliyinə güc gəlirsə...

***Bu gün dövrümüz üçün ən aktual məsələ qida təhlükəsizliyi, gigiyena qaydalarına riayət olunması, insan sağlamlığı üçün olduqca vacib önəm daşıyan qidaların düzgün istehsal və istehlak qaydalarıdır. Təbii qidaların qəhətə çəkildiyi bir zamanda yaşadığımız üçün bu önəmli mövzu günü bu gün bütün zamanlardan daha aktualdır. Amma... amma bəribaşdan min dəfə təəsüflə bildirməliyik ki, bu məsələdəki nöqsanlar, nəzarətsizlik, bir çox hallarda saxta məhsulların bazar və marketlərə ayaq açmasına "göz yumulması" illər, on illərdir, hətta əsrlərdir "axsaya-axsaya" yol gəlir bizimlə. Hər məsələdə olduğu kimi, mədəmizə ötürdüyümüz, sağlamlığımız üçün bir nömrəli önəm daşıyan qida məsələsində də axsamaqda davam edirik.***

Bəli, görünən reallıq odur ki, digər qüsurlu "ənənələlər" kimi, qida təhlükəsizliyi məsələsində, o cümlədən gigiyena qaydalarında bircə addım da irəli gedə bilməmişik. Hər məsələyə olduğu kimi, gigiyena və qida təhlükəsizliyimizə də laqeyd münasibətimiz günü bu gün də davam edir. Əsrlərdir beynimizdə kök salmış yanlış düşüncə tərzi bizi uçurumun lap kandarına gətirib çıxarıb. Hətta real danışsaq, uçurumun düz ortasındayıq...

Ölkəni göbələk kimi başına alıb gedən supermarketlərin rəflərinə düzülən ən ucuzundan başlamış ən bahalısına qədər bütün məhsullar nə nəzarətdən keçir, nə standartlara uyğunluğu yoxlanılır, ən dəhşətlisi də bu məhsulların keyfiyyət dərəcəsi naməlum olaraq qalır. Aparıcı Avropa ölkələrinin brend nişanlarına bükülmüş, amma içi TƏZƏK olan saxta "brend məhsullar" bazarlarda ayaq tutub yeriyir. Min təəsüf ki, istehsala və istehlaka nəzarətsizlik, ən əsas da qida təhlükəsizliyinə olan barmaqarası yanaşma ucbatından Azərbaycan vətəndaşlarında bütün məhsullara qarşı "saxtadır, üz kağızında Avropa brendi yazılsa da içindəkilər Bakının sexlərində hazırlanıb" düşüncəsi formalaşdırıb. On illərdir ki, bu ölkədə vətəndaşın yerli istehsala inamı qalmayıb, hətta yerli istehsala ikrah hissi ilə yanaşır. Niyə? - saxtakarlığa, başdansovdu "istehsala" görə!

Əslində, Azərbaycan əhalisinin yerli istehsala olan bu münasibəti üzü Rusiya Çarlarından başlayıb. Hətta sovetin qılınc kəsən vaxtları da qida təhlükəsizliyinə, ticarət qaydalarına olan münasibətimizi zərrəcə də dəyişdirə bilmədi. Daha doğrusu, mənfi qüsurlarımıza bir "dur" deyən tapılmadı. Sovet hökumətinin cırhacır vaxtlarında "Mozalan" telejurnalının Bakıda istehsal olunan ən müxtəlif məhsullar barədə dad çəkdiyi sujetlər də "dil açıb" çox şeyi deyir. Biz düzəlmirik ki, düzəlmirik. "Şirinlik", "hörmət" kimi rüşvət terminləri cəmiyyətimizi gənə kimi yeyib dağıtmaqda davam edir. Xüsusilə nə olur-olsun cibini doldurmaq hərisliyi bu cəmiyyətin axırına çıxan ölümcül xəstəlik kimi bu gün daha dəhşətli xarakter alıb.

Min dəfə təəssüf olsun ki, ancaq ciblərini və doymaq bilməyən gözlərini "doldurmaq" üçün yerli işbazlar əhalimizin qida təhlükəsizliyini də hərraca qoyublar. "Biznesmen və şirkət sahibi" libasına bürünmüş belə cinayətkarlar öz xalqına qarşı ağla gəlməyən min cür pisliklərdən çıxır, sərvət toplamaq üçün milyonlarla insanın sağlamlığını gözünü qırpmadan təhlükəyə atırlar.

Marketlərdə Masazır və Hövsandakı sexlərdə marqarin yağından hazırlanan keyfiyyətsiz "yağlar" bəh-bəhlə, üzərində dünya miqyasında tanınmış və etibarlı yağ firmalarının etiketi olan bahalı yağlar kimi əhaliyə sırıdılır.

Bunun kolbasa məhsulları da, şəkər və şirniyyat məmulatları da, geyim dəstləri də elə bu gündədir. Və ən dəhşətlisi odur ki, ən sadə vətəndaşın belə bütün bunların saxta olduğunu aydınca gördüyü bir vaxtda bu dəhşətli cinayətin aradan qaldırılması üçün heç kim hərəkətə keçmir. Aidiyyatı qurumların sanki "gözləri qapanıb", piştaxtalardakı saxta, keyfiyyəti yerlə sürünən "məhsulları" görmürlər. Nədən marketlərdə - fərqi yoxdur, istər adi kiçik mağaza olsun, istər supermarket olsun, istər hipermarket - yoxlanış aparılmır, vaxtı-vaxtında qida məhsullarına nəzarət mexanizmi yardılmır? Əlbəttə, cavabı on illərdir alınmayan sualdır. Olan xalqın genofonduna olur.

Saxta, insan sağlamlığı üçün zərərli məhsullar həm də o deməkdir ki, Azərbaycan vətəndaşının ömür yolçuluğu da çox uzağa getməyəcək. Bu saxta məhsullarla güc-bəla əlli yaşı aşıra biləsən. Bu o deməkdir ki, milli genefonumuz məhv olur, sayımız artmayacaq, əksinə azalacaq. Beləcə, öz əlimizlə öz evimizi yıxmaq, rüşvət müqabilində qüsurları "görməmək" xəstəliyimiz artıq sonumuzu yaxınlaşdırır...

# COP29: postsovet məkanında ilk dəfə Azərbaycanda

***Prezident İlham Əliyev: "Bu, dünyada beynəlxalq arenada bir nömrəli konfransdır və ilk dəfədir ki, postsovet məkanında keçirilir. Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq. Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq"***

Azərbaycan nadir təbiətin, ümumilikdə ətraf mühitin qorunmasına həssaslıqla yanaşan ölkələr sırasındadır. 2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamı bunu təsdiqləyən amildir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.







Təsadüfi deyil ki, Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

Digər tərəfdən isə Sərəncamda da deyildiyi kimi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

## Bu, bizim günahımız deyil ki, biz neft və qazla zənginik

Lakin COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərardan sonra bu qərar bir sıra dünya dövlətləri tərəfindən heç də birmənalı qarşılanmadı. Xüsusilə Qərb mediası Azərbaycana qarşı hücumlara başladı. Maraqlıdır, nə üçün Qərb neft və qazla zəngin ölkələrin COP-la bağlı tədbir keçirməsinə bu qədər qəribə baxır. Axı əslində bu tədbirin məhz belə ölkələrdə keçirilməsi vacibdir. O mənada ki, dünya görməlidir ki, hansı ölkənin iqlim dəyişmələrində rolu var, hansının yoxdur. Hansı ölkə bu beynəlxalq təşəbbüsün yanındadır, hansı yox. Bəlkə neft və qazla zəngin ölkələr arasında elə bir təşəbbüslə çıxış edəni olacaq ki, bu, bütün dünyanı xilas edəcək. Nə üçün Qərb bunları deyil, məhz neft və qazla zəngin ölkə olaraq COP-un Azərbaycanda keçirilməsinin üzərində dayanmışdı. Bir çox ilklərə imza atan Azərbaycan bəlkə elə bu tədbirlə dünyanın xilası layihəsini ortaya qoyacaq.

Düşünürəm ki, Qərb də bunu çox gözəl bilir. Azərbaycanın nəyə qadir olduğunu dərk edir. Məsələ COP-un Azərbaycanda keçirilməsi deyil, kiçik dövlətlərin bu qədər böyük tədbirlərə ev sahibliyi etməsi dərdidir. Lakin əminliklə demək olar ki, Azərbaycan bu tədbiri elə yüksək səviyyədə başa vuracaq ki, bu kiçik dövlətdən dünyanın ən böyük dövlətlərinə nümunə olacaq.

İyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda Şuşada keçirilən 2-ci Qlobal Media Forumunda Prezident İlham Əliyevin digər məsələlərlə yanaşı, bizim üçün qarşıda böyük tədbir olan COP-la bağlı media nümayəndələrinin suallarını cavablandırmasını çox diqqətlə dinlədim. Və dinlədikcə də dövlətimizin başçısının yanaşmaları, təhlilləri ilə qürur duymamaq mümkün deyildi.

44 günlük İkinci Vətən müharibəsi zamanı dünya mediasının suallarını tez-tez cavablandıran, Azərbaycanın tarixini, Qarabağda 30 il ərzində baş verənləri, ermənilərin bu torpaqlara qarşı zorakılığını, vəhşiliyini, burada həyata keçirdikləri soyqırımlarını və dünyanın buna göz yummasını bütün detalları ilə bir tarixçi kimi izah edən dövlət başçısının bu dəfə də COP-un Azərbaycanda keçirilməsinə Qərbin narahatlığının izahını qürurla dinlədik.

Birləşmiş Ərəb Əmirliklərində, Dubay şəhərində yaşayan və işləyən media nümayəndəsi Frans Keynin "COP29-la bağlı tədbirlərin mediada işıqlandırılmasını necə görürsünüz və Sizin yanaşmanız necə olacaqdır? Çünki böyük ehtimalla bu tədbir Qərb mediası tərəfindən qərəzli şəkildə işıqlandırılacaqdır"-sualı çox maraqlı şəkildə cavablandırıldı.

Prezident İlham Əliyev: Bizim namizədliyimiz və ev sahibliyimizlə bağlı qərar verildikdən sonra - növbəti həftə Qərb mediasında bizə qarşı hücumlar başladı. Bu, gözlənilən bir hal idi və bunu müzakirə etdiyim bir çox şəxslərlə danışıqlarımda, - həmkarlarımı, dövlət və hökumət başçılarını nəzərdə tuturam, - onlar mənə deyirdilər ki, bu, Azərbaycan üçün böyük başağrısı olacaq. Əlbəttə, biz dərk etdik ki, hücumlara məruz qalacağıq. Biz əlbəttə, bunu proqnozlaşdıra bilmərik ki, ittihamların mövzusu necə olacaqdır? Amma əminəm ki, kifayət qədər ittihamlar olacaqdır. Biz nədə ittiham olunurduq? Neft və qazla zəngin olan ölkə olduğumuz üçün. Bu, çox təəccüblü bir haldır. Yeri gəlmişkən, COP28-in ev sahibi olan Birləşmiş Ərəb Əmirlikləri də eyni mövzuda ittihamlarla üzləşdi. Təəssüf ki, bizə qarşı çox geniş və koordinasiya edilmiş media prosesi başladı, biz ilk vaxtlar buna hazır deyildik. Biz izah etməyə çalışırdıq, bu, bizim günahımız deyil ki, biz neft və qazla zənginik. Bizim fəaliyyətimiz onun əsasında qiymətləndirilməməlidir. Biz iqtisadiyyatımızı necə şaxələndirmişik, işsizliyin öhdəsindən necə gəlmişik, yoxsulluğu necə azaltmışıq, mövzular bunlar olmalıdır. Bu gün bu göstəricilər inkişaf edən ölkələrin səviyyəsindədir, bəzən ondan daha aşağı, daha azdır, yoxsulluq beş faiz səviyyəsindədir və bəzi ölkələr bunu heç yuxusunda görə bilməz. Qazıntı yanacaq növlərindən əldə etdiyimiz gəlirlərin ədalətli paylanılması çox şəffaf şəkildə, məsuliyyətli şəkildə həyata keçirilir. Buna baxmayaraq, ittihamlar davam edir. Ancaq deyə bilərəm ki, vaxt keçdikcə bizə qarşı hücumların sayı azalır, bizim COP heyətimiz çox səmərəli işləyir, öz vaxtının böyük hissəsini xaricdə keçirir, müxtəlif görüşlər keçirir. Bizim COP-la bağlı gündəliyimiz proqnozlaşdırılabilən, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş gündəlikdir. Deyə bilərəm ki, qərardan altı ay keçdikdən sonra biz daha az hücuma məruz qalırıq. Ancaq onu bilirik ki, tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı artacaqdır.

## "Əsrin müqaviləsi" əsrin xilası oldu

Yadımdadır, 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin müqaviləsi" adlandırılan neft kontraktı imzalananda buna qarşı çıxanlara, reallaşacağına inanmayanlara cavab olarasq ""Əsrin müqaviləsi": əfsanədən reallığa" adlı bir yazıda mən yazmışdım və o vaxt çox gənc olmağıma baxmayaraq təhlil etməyə çalışmışdım ki, əsrin müqaviləsinin mahiyyəti nədən ibarətdir.



Forumda əməkdar jurnalist Mirşahin Ağayevin - mənə bu, maraqlıdır və bir də ümumiyyətlə, nə qədər inanmaq olar bu müəyyən dövlətlərin səmimiyyətinə ki, onlar COP29-la guya dünyanın xilasına çalışacaqlar. Mən Azərbaycanın bu barədə səmimiyyətinə Sizin çıxışlarınızdan özüm qədər əminəm. Amma haradan bilə bilərik ki, 30 il bundan sonra onlar yaşıl enerjini də Azərbaycana irad tutmayacaqlar ki. Axı bu gün o dövlətlər bir yandan kəpənək effektindən qorxurlar ki, ay aman, çiçəyin üstünə ehmalca qonsun ki, dünya dağılar, o tərəfdən də dünyanın bütün pulunu, dollarlarını, avrolarını sərf edirlər Rusiya-Ukrayna müharibəsinə, az qala nüvə başlıqlarını hərəkətə keçirmək haqqında düşünürlər.

***Ardı Səh. 6***

# COP29: postsovet məkanında ilk dəfə Azərbaycanda

Əvvəli səh. 5

Nə qədər çətindir Sizə belə qeyri-səmimi tərəfdaşlarla iş aparmaq və COP29-dan Siz nə gözləyirsiniz? Doğrudanmı, onlar öz sözlərinin sahibi olacaqlar?-sualını dövlətimizin başçısı bu gün bizim və bir çox dövlətlərin həyatında əsas rol oynayan "Əsrin müqaviləsi"ndən maraqlı tarixi fakrlar gətirərək cavablandırdı.

- Bəzi hallarda ikili standartları görməyəndə özümüz-özümüzə sual veririk, görəsən, nələr baş verir? Biz buna o qədər öyrəşmişik ki, yəni, ağa qara, qaraya ağ demək adi hala çevrilib. Burada bunun yeganə yolu buna məhəl qoymamaq, fikir verməmək, öz yolundan dönməmək və ölkə üçün, xalq üçün lazım olan bütün addımları vaxtında atmaqdır. Necə ki, 1994-cü ildə, siz də bunu qeyd edirsiniz, Ulu Öndər tərəfindən tarixi qərar qəbul edildi. O, tarixi qərar idi və o vaxt mən də xatırlayıram, bu müqavilə ilə əlaqədar bir çox mülahizələr, bir çox fikirlər var idi. Bunu qəbul etməyənlər var idi. Siz də yaxşı xatırlayırsınız və o hadisələri işıqlandırmısınız. O müqavilə imzalanandan iki həftə keçməmiş dövlət çevrilişinə cəhd edildi və bunun səbəblərindən biri məhz bu müqavilə idi. Ondan sonrakı geosiyasi gedişatların da təməlində məhz bu dayanırdı. Bu müqavilə Azərbaycana əsl müstəqillik gətirə biləcək bir müqavilə idi və onu o vaxt biz də bilirdik, dostlarımız da bilirdi, bizi istəməyənlər də bilirdi. Bu, bizim üçün bir nəfəs borusu, bir oksigen borusu idi. Xatırlayıram, mənim atam o müqavilə imzalanandan sonra tez-tez məndən soruşurdu, nə vaxt biz artıq onu görəcəyik, nə vaxt görəcəyik və biz əlimizdən gələni, yəni, bütün bizim komandamız, rəhmətlik Xoşbəxt müəllim, rəhmətlik Natiq Əliyev, Valeh Ələsgərov, Allah canını sağ eləsin və digər yoldaşlar, mən daxil olmaq şərtilə, - əlimizdən gələni edirdik ki, biz maksimum qısa müddət ərzində ilk nefti hasil edək. Əgər dünya neft kontraktlarının tarixçəsinə nəzər yetirsəniz görərsiniz ki, belə qısa müddət ərzində bu cür nəhəng neft yatağından neft çıxarmaq cəmi üç il ərzində tarixdə olmayıb. 1994-cü ilin sentyabr ayında müqavilə imzalandı, 3-4 aydan sonra parlamentdə ratifikasiya edildi, qanun kimi qüvvəyə mindi və 1997-ci ilin noyabr ayında "Çıraq-1" platformasından ilk neft çıxarıldı. Ondan iki il sonra Bakı-Supsa kəməri tikildi, daha sonra Ulu Öndər öz əlləri ilə Bakı-Tbilisi-Ceyhanın təməlini qoydu. Yəni, bütün bunlar o vaxt da, bu gün də bizim gördüyümüz işlərin nə qədər uzunmüddətli olduğunu bir daha göstərir. Təsəvvür edin, əgər o vaxt bu müqavilə imzalanmasaydı, yaxud ondan iki il keçməmiş "Şahdəniz" üzrə müqavilə imzalanmasaydı, bu gün həm biz, həm də bizim qazımızdan bəhrələnən, ondan öz enerji təhlükəsizliyində istifadə edən ölkələr hansı çətinliklərlə üzləşəcəkdilər? Yəni, o, qlobal təfəkkürün və müdrikliyin təzahürü idi.





### Neftimiz, qazımız yoxdur kimi iradlar və gün gələcək bizə yaşıl enerjini də irad tutacaqlar...

Dövlətimizin başçısı o zaman bizə tutulan iradlardan da söhbət açdı. Bəlkə də hər kəsin bilmədiyi faktları söyləməklə bilməsinə səbəb oldu ki, həmin vaxt haqqımızda hansı yalanlar uydurulub. Və müəyyən reallıqlardan sonra bu yalanları uyduranlar susub yerlərində oturdular: O ki qaldı iradlara, bilirsiniz, o vaxt da bizə başqa iradlar tuturdular. Bəlkə də siz də yəqin ki, xatırlayırsınız. Deyirdilər ki, Azərbaycanda neft yoxdur, neft kəmərləri tikilməməlidir, Azərbaycan blef edir, nefti yoxdur, nə bilim yalan məlumatlar ötürür. Bu günə qədər "Azəri-Çıraq"dan hasilatımız davam edir. "Şahdəniz" müqaviləsi bağlananda sonra da ortalığa bir uydurma atmışdılar ki, Azərbaycanda qaz yoxdur. Azərbaycan özü filan yerdən qaz alır və heç vaxt, heç bir ölkəyə qaz nəql edə bilməz. Artıq səkkiz ölkəyə qaz nəql edirik, bu il bizdə 50 milyard kubmetr hasilat gözlənilir. Onun bir hissəsi yenidən neft laylarına vurulacaq ki, oradan neft hasilatı daha da artsın, bir hissəsi daxili istehlaka yönəldiləcək, 25 milyard kubmetri isə dünya bazarlarına nəql olunacaq. Bu, təkcə mənfəət deyil. Bu, geosiyasi əhəmiyyətdir, bu sahə ilə yaxından tanış olanların hamısı yaxşı bilirlər ki, bu gün qaz amili enerji təhlükəsizliyinin bir nömrəli amilidir. Mən istisna etmirəm, bəlkə də siz haqlısınız, gün gələcək bizə yaşıl enerjini də irad tutacaqlar. Çünki yaşıl enerji ilə bağlı indi üzə çıxan bir çox məqamlar var ki, insanları və qərar qəbul edənləri düşünməyə vadar edir. Yəni, orada o materialların utilizasiyası necə olacaq? Batareyaların, akkumulyatorların taleyi necə olacaq? Yəni, indidən artıq bunun altına da bir mina qoyulur ki, lazım olan vaxtda o, kiminsə başında çatlasın. Amma yenə də deyirəm, bizim atdığımız bütün addımlar və təşəbbüslərimiz əsas məqsədi güdür - ölkəmizi gücləndirmək, iqtisadi gücümüzü artırmaq, iqtisadi və siyasi müstəqilliyimizi daha da gücləndirmək və Azərbaycanı yüksək liqaya daxil etdirmək.

COP29 bu istiqamətdə çox önəmli bir addım olacaq. Biz bu istəkdə olanda bəziləri bəlkə də bunu anlamırdı. Bu gün də buna ağızlarını büzənlər var ki, nəyə lazımdı, qoyun rahat yaşayaq. Yenə tədbir olacaq, yenə qonaq gələcək. Biz artıq bunun bəhrəsini görürük. Azərbaycanın geosiyasi önəmi əhəmiyyətli dərəcədə artıb. Bizim beynəlxalq müstəvidə təmasda olduğumuz ölkələrlə ikitərəfli əlaqələr tamamilə başqa məcrada inkişaf edir. Ənənəvi mövzulardan başqa, bu mövzu və buna paralel olan mövzular da daxil edilir.

Mən artıq qeyd etdim, inkişafda olan 50-dən çox kiçik ada dövlətləri var. Onlar üçün biz xüsusi fond təsis edirik və o fonda əhəmiyyətli dərəcədə vəsait də qoyacağıq. Onlara kömək göstərəcəyik. Əlbəttə, onlar bizim təbii müttəfiqlərimizə çevriləcək və mən digər ölkələri sadalamıram. Biz bu addımları atmaqla ölkəmizi böyük dərəcədə gücləndiririk və bu gün burada bizim COP nümayəndələri, komandamız iştirak edir. Onlar da çox fəal işləyir və mən demişəm, siz xarici ölkələrdə işləməlisiniz, bütün dünyanı dolaşmalısınız ki, Azərbaycanın mövqeyini, Azərbaycanın gündəliyini bütün tərəf-müqabillərinə çatdırasınız.

### Postsovet məkanında Azərbaycan ilkdir

Dövlətimizin başçısının da vurğuladığı kimi, Azərbaycan postsovet məkanında ilk dövlətdir ki, COP29 kimi beynəlxalq tədbirə ev sahibliyi edir. Bunun özü onun göstəricisidir ki, Azərbaycan kiçik dövlət olsa da, bəzi hallarda böyük dövlətlərə örnəkdir. Bunu pandemiya dövründə də gördük, torpaqlarımızın işğaldan azad olunduğu 44 gündə də, hətta birgünlük antiterror əməliyyatı zamanı da.



Qarşıda isə COP29 kimi nəhəng tədbirdə görəcəyik ki, Azərbaycan bu tədbirə həm necə ev sahibliyi edir, həm də qlobal iqlim dəyişməsinə qarşı mübarizəyə hansı təklifləri ilə çağırış edir.

Ən əsası dövlətləri bir araya gətirməkdir ki, bu missiyanı bu dəfə bizim ölkəmiz öz üzərinə götürüb. Dövlətimizin də başçısının dediyi kimi: Təşkilati nöqteyi-nəzərdən mən sözün düzü, hər hansı bir çətinlik görmürəm. Çünki bizim təcrübəmiz kifayət qədər böyükdür. Nəticə etibarilə nə hasil ediləcək, bunu bəri başdan demək çətindir. Bir də ki, bu, artıq bizdən asılı deyil. Biz maksimum edə biləcəyimizi edəcəyik, körpülər quracağıq, Qlobal Cənubla Qlobal Şimal arasında təmasları gücləndirəcəyik. Ancaq əlbəttə, bu iqlim məsələsində əsas söz sahibləri təbii ki, Azərbaycan boyda ölkələr deyil. O böyük ölkələrdir ki, onları da bir araya gətirmək üçün biz indi səylər göstəririk.

Və dövlətimizin başçısının digər dəyərli fikirləri: Hesab edirəm ki, biz Birləşmiş Ərəb Əmirliklərinin COP28-in ev sahibi kimi təcrübəsindən istifadə edəcəyik və onun üzərindən işimizi aparacağıq. Ancaq ondan qabaq COP-a Misir ev sahibliyi edibdir. Onların da neft və qazı var. Bizdən sonra da Braziliya ev sahibliyi edəcək. Yenə də neft və qaz ölkəsidir. Bu, onu göstərir ki, bu ölkələr enerji təhlükəsizliyi baxımından özlərini çox rahat hiss edən ölkələrdir. Onlar məsuliyyət nümayiş etdirirlər. Onlar yaşıl texnologiyaya, yaşıl keçidə sərmayə qoyur, töhfə verirlər.

***Mətanət Məmmədova***

# Bakıda Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 97-ci ildönümü qeyd edilib





Bakıda Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 97-ci ildönümü qeyd olunub. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Çinin dövlət himnləri səsləndirilib. Tədbirdə çıxış edən Çinin Azərbaycandakı səfirliyinin hərbi attaşesi, polkovnik Vanq Lei Çin ordusunun yaranmasından və onun möhkəmləndirilməsi istiqamətində dövlətin gördüyü işlərdən danışıb. "Belə tədbirlər Çin və Azərbaycan arasında qarşılıqlı dostluq və təcrübə mübadiləsi üçün yaxşı fürsətdir. Müasir dövrdə bütün ölkələr bir-birindən asılı və bir-biri ilə sıx bağlıdır. Bu mürəkkəb vəziyyətlə qarşılaşdıqda Çin Xalq Respublikasının Sədri Si Cinpin ordunun döyüş qabiliyyətini artırmaq üçün müasir texnikanın tətbiqinin zəruriliyini qeyd edib.

Çin Azadlıq Ordusu milli mövcudluq, müstəqillik, xalqların azadlığı, regional sabitlik və dünyada sülhün bərqərar olması üçün qəhrəmancasına mübarizə apararaq milli suverenliyin müdafiəsi, təhlükəsizliyin təminatı və dünyada sabitliyin qorunmasında mühüm rol oynayıb. Çin xalqı daima sülhsevərliyi ilə tanınıb. Çin dövləti dinc inkişaf yoluna sadiqdir və həmişə aktiv müdafiəyə əsaslanan milli müdafiə siyasəti yürüdüb. Çin Silahlı Qüvvələri öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirir, dünyada sülhün möhkəmlənməsi üçün əməli tədbirlər görür. 97 il Çin ordusu ölkənin rifahı, təhlükəsizliyi və suverenliyi üçün ciddi dəstək göstərib. Çin daim aktiv müdafiə siyasətini tətbiq edir. Bəşəriyyətin rifahına çalışır və ortaq gələcək qurur. Çin Xalq Azadlıq Ordusu daim inam və qətiyyətə malikdir", - deyə hərbi attaşe əlavə edib.

Azərbaycan və Çin arasında dostluq münasibətlərinin qədim tarixə malik olduğunu qeyd edən Vanq Lei bildirib ki, 2 min il əvvəl başlayan bu münasibətlər tarixi İpək Yoluna əsaslanır. O, Azərbaycan ilə Çin arasında münasibətlərin müsbət istiqamətdə inkişafında dövlət başçılarının xüsusi rolunu diqqətə çatdırıb.

Diplomat bildirib ki, Çin və Azərbaycan Silahlı Qüvvələri arasında əməkdaşlıq xalqlarımıza fayda verəcək: "Ölkələrimiz arasında beynəlxalq və regional əməkdaşlıq daha da inkişaf edir. Biz əminik ki, cənab Sədr Si Cinpin və Prezident İlham Əliyevin güclü rəhbərlikləri altında iki ölkə Silahlı Qüvvələrinin birgə səyləri ilə hər iki tərəf dialoq, strateji məsləhətləşmələr və praktik əməkdaşlıqda daha səmərəli nəticələr əldə edəcək. Çin və Azərbaycan Silahlı Qüvvələri arasında dostluq və əməkdaşlığı daha da dərinləşdirmək hər iki dövlətin maraqlarına tam uyğundur və şübhəsiz ki, xalqlarımıza fayda verəcək", - deyə hərbi attaşe vurğulayıb.

# "Azərbaycan bu tədbirə ev sahibliyi etmək üçün geniş logistik imkanlara malikdir"

## "The National News" portalı Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün hazırlığından yazıb

***Birləşmiş Ərəb Əmirliklərinin "The National News" nəşrində Azərbaycanın bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməyə hazırlaşmasına dair məqalə yayımlanıb.***

Belə ki, 2-ci Şuşa Qlobal Media Forumunun iştirakçısı Con Dennehinin müəllifi olduğu yazıda Prezident İlham Əliyevin Forumun açılış mərasimində jurnalistlərin suallarını cavablandırarkən səsləndirdiyi fikirlərə də yer verilib.

Məqalədə qeyd olunub ki, Azərbaycan bu ilin noyabrında COP29-a ev sahibliyi etməklə dünyanın müxtəlif bölgələri arasında növbəti dəfə körpü rolu oynayacaq. Azərbaycan Prezidentinin "Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq", - sözlərini xüsusi vurğulayan müəllif qeyd edib ki, Prezident İlham Əliyev Azərbaycanın Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qurduğunu diqqətə çatdırıb.

Yazıda Azərbaycanın neft sənayesinin tarixindən geniş bəhs olunub, dünyada sənaye üsulu ilə ilk neft quyusunun ölkəmizdə qazıldığı, Bakının bir vaxtlar dünyanın neftə olan tələbatının yarısını ödədiyi vurğulanıb. Bildirilib ki, məhz buna görə Azərbaycan qədim dövrlərdən "Odlar yurdu" adlandırılır.

Müəllif qeyd edib ki, zəngin qazıntı yanacağı resurslarına malik ölkə hazırda iqlim dəyişikliyi məsələlərinin müzakirə olunduğu COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməyə hazırlaşır. Təxminən üç aydan sonra 200-ə yaxın ölkədən nümayəndələr Bakıda bir araya gələrək iqlim dəyişikliyi məsələsini həll etməyə çalışacaqlar. Azərbaycanın iqlim dəyişikliyindən əziyyət çəkən ölkələrin problemlərinə xüsusi həssaslıq göstərdiyi vurğulanıb, Prezident İlham Əliyevin iqlim dəyişikliyi məsələsində hələ də qeyri-müəyyənliklərin olması, xüsusilə Qərbin bu məsələdə qeyri-obyektiv mövqeyi barədə fikirləri diqqətə çatdırılıb: "Bir tərəfdən Avropa bizdən xahiş edir ki, hasilatı artıraq və onu Avropaya nəql edək. Çünki onların buna ciddi ehtiyacı var. Digər tərəfdən, onlar bunu maliyyələşdirmirlər... Yəni, biz ağılsızıq ki, onların ehtiyacı olmadığı qaza 10 milyardlarla vəsait qoyaq? Yəni, sonra da deyək ki, bizim qazımız haradadır. Yəni, mənim mesajım o oldu ki, gəlin, bu oyuna son qoyaq, faydalı qazıntı yanacağı olmadan yaşamaq mümkün deyil".


The National
The National Climate
Fossil fuel-rich Azerbaijan prepares to host crucial Cop29 climate talks
Can Baku, one of the birthplaces of oil, confound doubters and deliver an ambitious climate outcome for the world?
John Dennehy
Baku
25 July, 2024
Rows of oil rigs dot the shores of the Caspian Sea; derricks abound across the city and flares from refineries puncture the sky.
This is Baku, the capital of Azerbaijan, where in just a few months the world will gather to tackle climate change.

Yazıda Azərbaycanın bərpaolunan enerjinin inkişafı, ölkəmizin bu sahədə həyata keçirdiyi layihələr barədə ətraflı söhbət açılıb, dövlətimizin başçısının Azərbaycanın bərpaolunan enerji sahəsində böyük nailiyyətlərə imza atması barədə fikri xüsusi vurğulanıb. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa etdiyi 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının ötən il istifadəyə verildiyi xatırlanıb. "Masdar" şirkətinin Azərbaycan üzrə meneceri Murad Sadıqov bildirib ki, neft hasilatında qabaqcıl ölkə olan Azərbaycan yaşıl enerji sahəsində də ön sıralarda olmaq istəyir: "Əgər dünya dəyişirsə, Azərbaycan da liderlərdən biri olmalıdır. Bakının havası əvvəlkindən qat-qat təmizdir. Hökumət bu işləri davamlı olaraq həyata keçirir".

Müəllif Azərbaycanın ev sahibliyi edəcəyi COP29-da iqlim danışıqlarında maliyyə məsələsinin ön planda olacağını vurğulayıb: "COP29-u uğurla keçirmək üçün Bakının qarşısında məsul vəzifə var - maliyyə. Bu tədbirdə qalıq yanacağından uzaqlaşmaq prosesinin necə maliyyələşdiriləcəyi ön plana çıxacaq. Dünya inkişaf etməkdə olan ölkələr üçün illik 100 milyard dollar həcmində yeni maliyyə öhdəliyi ilə razılaşmalıdır".

Yazıda COP29-un müəyyən olunmuş Prezidenti Muxtar Babayevin bu mühüm məsələ barədə danışıqların aparılmasına dair fikrindən sitat gətirilib: "Hazırda danışıqlar prosesindəyik. Bütün ölkələr bu yeni məqsədləri başa düşür və daha iddialı olmalıdırlar".

Məqalədə Azərbaycanın onilliklərlə davam edən münaqişəyə son qoyulması məqsədilə aparılan sülh prosesi fonunda Ermənistanı COP29-a dəvət etdiyi qeyd olunub. Jurnalist Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu məsələ ilə bağlı fikirlərinə istinad edib: "Azərbaycan indi Qarabağ münaqişəsinin sonundadır. İndi biz bu səhifəni çevirdik və sülh haqqında düşünürük. Biz, həmçinin sülh və COP29 anlayışını birləşdiririk".

Qeyd edilib ki, COP29 Bakı Olimpiya Stadionunda keçiriləcək. Hazırda bu arenada COP29-a geniş hazırlıq işləri görülür. COP29-un baş icraçı direktoru, Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov burada yaradılacaq zonalar barədə məlumat verib. O bildirib ki, Azərbaycan bu tədbirə ev sahibliyi etmək üçün geniş logistik imkanlara və yüksək qonaqpərvərliyə malikdir.



# Kimdir günahkar: Ağadadaş Ağayev, yoxsa "Medera"?

MƏTANƏT

***Bəlkə də deyəcəksiniz ki, nə üçün Nurəddin Cəliov yox, "Medera"? Çünki günlərdən bəri analizlərimə əsasən deyə bilərəm ki, Nurəddin Cəlilov tək öz fikirlərini ifadə etmir, həm də "Medera" hospitaldan aldığı tapşırıqları icra edir.***

Hadisədən hər kəsin xəbəri var. Ona görə ki, hadisənin bir tərəfində tanınmış müğənni dayanır, bir tərəfində o boyda "Medera", digər tərəfdə isə "like jurnalistikası"nın bütün nümayəndələri. O "like jurnalistikası" ki, sonda Nurəddin Cəlilov həmin media nümayəndələrini artist adlandırdı. Hadisəyə mən də bir jurnalist kimi münasibət bildirmək istədim. Həm də "lake jurnalistikası" terminini mətbuata gətirən bir jurnalist kimi.

Hadisə belə başlanır ki, xalq artisti Ağadadaş Ağayev öz evinin balkonundan yaxınlıqdakı tibb müəssisəsinin mühafizəçisindən kömək istəyir. Mühafizəçi isə yaxına gəlmir. Sonra isə Ağadadaş müəllimin əlibaltalı xəstəxanaya hücumu gündəmə gəlir. Lakin çox az adam bu suala cavab axtarmağa çalışır ki, Ağadadaş bəyi əlibaltalı evdən çıxmağa nə vadar edir.

Söhbət illərdir, tanıdığımız Ağadadaş Ağayevdən gedir. Hər birimizin təxəyyülündə ağır, sanballı şəxs fikrini formalaşdıran, səhnədə hər zaman mükəmməl şəkildə gördüyümüz, əlinə balta almağı ağlımıza heç vaxt gətirə bilmədiyimiz Ağadadaş bəydən. Bəs o, baltanı haradan tapdı, xəstəxanaya nə üçün hücum etdi?

Bizlərdən bəziləri öyrəşib məşhurlarımızı gözdən salmağa. Ötən günlərdə Səməndər Rzayevin qəbrini çəkib "like" yığmağa çalışan bizim "like" mediası deyildimi? Anarın yazıçılığını müzakirə edən necə, "like" mətbuatı deyildi? İndi isə günlərdir ki, Ağadadaş Ağayev bunlara mövzu verib. Xalq(x) bir cümlə yazan yoldankeçənini yazıçı edir, bir bənd yazanını şair, dodaqaltı zümzümə edənini görkəmli müğənni adlandırır, bizim bəzilərimizin də sənəti göz önündə olanlara qoyduğu hörmət budur?..

Nə üçün Ağadadaş bəyin ağır xərçəng olduğundan xəbərsizdir bu mühafizəçi? Yoxsa bilir, bildirmək istəmir. Heç o, tanınmış şəxsiyyət deyil, xəstə bir insandır, köməyə çağırır səni. Nə üçün yardım etmirsən? Axı bu, azərbaycanlı kişiyə yaraşmayan xislətdir.

İkincisi, Ağadadaş Ağayevin hər kəs bilir ki, 70-sən artıq yaşı var. Mühafizəçi isə deyilənə görə 56 yaşındadır. Nə olardı ki, özündən böyüyə hörmət edərdi bu mühafizəçi? Axı bu da bizim milli mentalitetimizə uyğun deyil ki, yaşlı adama biganə yanaşaq.

Üçüncüyə gəlincə isə, adama sual verərlər ki, sən nə dedin ki, üstünə balta ilə gəldilər? Hətta ailə üzvlərin də səni danladılar ki, gərək belə etməzdin. Gərək özündən yaşda 20 yaş böyük olan ağsaqqalı təpiyin altına salmazdın.

Ağrı elə bir şeydir ki, o, adamın ağlını başından alır. Adi dişimiz ağrıyır, əzizlərimizdən biri bizə dərman gətirəndə onun bu yaxşı əməlini aqressiv qarşılayırıq. Bəs qulağından qan süzən, yaralı, içinə xərçəng sarılmış bir insanı belə olan anda anlamaq nə qədər çətindir?

Bir də ki, təəssüf ki, bizim klinikaların əksəriyyətini aqressiv mühafizəçilər qoruyur. Görəsən onları işə kim götürür? Axı onlara tibb müəssisəsinin, tibb işçilərinin, bir də ki, xəstələrin taleyi tapşırılır. Nə vaxtadək tibb müəssisələri yoldan keçənləri özünə mühafizəçi edəcək? Görəsən bizdə elə bir kurs təşkil olunacaq ki, insanların taleyi tapşırılan belə mühafizəçilər orada ən azından müəyyən biliklər alsınlar? Və yaxud da işə götürülən zaman onların psixoloji vəziyyəti necə, yoxlanılır? Yoxlanmalıdır ki, Nurəddin Cəlilov kimi müsahibəsində müstəntiqdən "razılıq" edib hadisəyə ədalətlə yanaşdığını bəri başdan söyləməsin. Çünki hələ istintaq zamanıdır. Müstəntiqin isə qərarı sonda olur.

Bir sözlə, bizim xalq böyüyə hörməti ilə tanınan xalqdır. Bizim xalq bir-birinə yardım etməsi ilə tanınan xalqdır. Bizim xalq el içində hörmət sahibi olan insanlara saygı ilə yanaşan xalqdır. Xalqın bu kimi keyfiyyətlərini qoruyub saxlamaq isə hər kəsin borcudur.

Ağadadaş bəy xalqından üz istədi. Günlərdir gündəm olaraq onları yorduğu, aqressiv olduğu üçün. Nurəddin bəy necə, bunu edə biləcəkmi? Etməsi məsləhətdir. Olan olub artıq, keçən də keçib. İndi yalnız bağışlamaq lazımdır. Çünki bağışlamaq Allahın sevdiyi xüsusiyyətlərdəndir. Haqlı və haqsız tərəflərin hər ikisi üçün.

# Xalqı xalq, milləti millət edən onun ana dilidir

Bütün dövrlərdə dilinə, milli-mənəvi dəyərlərinə, tarixinə, mədəniyyətinə bağlılıq nümayiş etdirərək onların inkişafı istiqamətində mühüm addımlar atan Azərbaycan daim dünyanın diqqət mərkəzində olub. Məhz keçilən yola söykənərək Ulu Öndər Heydər Əliyev bildirmişdir ki, hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşib. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyil. Ümummilli Liderin milli-mənəvi, dini dəyərlərimizin, dilimizin qorunması, tariximizin öyrənilməsi və gələcək nəsillərə çatdırılması yönümündə atdığı davamlı addımların miqyası genişdir.



**_Nihad Pənahov_**
**_YAP Tovuz rayon təşkilatının sədri_**




Bütün süni məhdudiyyətlərə rəğmən Ulu Öndər Heydər Əliyev ana dili məsələsində öz mövqeyini hər zaman çox qətiyyətlə qorumağa müvəffəq olmuşdur. Dövlət dili uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider ziyalıları, xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvələri səfərbər etmişdir. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra, 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür. Təkliflərin çox böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Dahi şəxsiyyət Heydər Əliyev hər zaman bu çağırışı edirdi ki, tariximizi yaxşı öyrənməli, dilimizi, milli- mənəvi dəyərlərimizi qorumalıyıq. Ulu Öndərin 2001-ci il 18 iyun tarixli "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", 2001-ci il 9 avqust tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmanları da deyilənlərin təsdiqidir. Gənc nəslin milli ruhda tərbiyə olunmasının prioritetliyi bütün dövrlərdə atılan addımlardan aydın görünür.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev "Ana dilimizə hörmət və qayğı daimi olmalıdır" bildirərək bunu real addımları ilə təsdiqləyir. Ana dilimizi xarici təsirdən qorumalıyıq. Azərbaycan xalqının, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Çağırışlar sırasında bu mühüm məqam da xüsusi yer tutur ki, dilimizin saflığını daim qorumalıyıq. Dövlət başçısı İlham Əliyevin 2018-ci ildə imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı da məhz bu məqsədə xidmət edir. Sənəddə də qeyd edilir ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi də inkaredilməz həqiqətlərdir. Məhz bu problemlərin həlli məqsədilə imzalanan Fərmana əsasən dövlət dilinin tətbiqinə nəzarət, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxs yaradıldı. Əsas olan budur ki, milli varlığımız kimi dəyərləndirdiyimiz dilimizə hörmətlə yanaşaq, onun tətbiqi ilə bağlı həyata keçirilən təkmilləşmə, yeniləşmə proseslərinə töhfəmizi verək. Azərbaycanın zəngin tarixinin formalaşmasında önəmli rolu və xidmətləri olmuş böyük şəxsiyyətlərimiz ana dilimizi mənəvi Vətən kimi dəyərləndirmişlər. Dil, xalq və dövlət anlayışları bəşər tarixində önəmli yer tutduğu kimi, qloballaşma dövründə də həmin dəyərini qoruyub saxlamaqdadır. Reallıq budur ki, dil olmasa xalqlar, xalq olmasa dövlətlər bir-birindən fərqlənməzlər. Bir sözlə, xalqı onun dili, dövləti isə onun xalqı yaşadır. Məhz bu kontekstdən yanaşdıqda hər bir dövlətin təhlükəsizliyi ilə bağlı amillər sırasında dilinin qorunması və zənginləşdirilməsi əsas yer tutur ki, dövlətimizin bu istiqamətdə atdığı addımlar davamlılığı ilə diqqətdədir. Ümummilli Lider Heydər Əliyev bildirirdi ki, mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb.

# Azərbaycanda övladlığa uşaq götürmək prosesi necə həyata keçirilir?

"Azərbaycan Respublikasında övladlığagötürmə məsələləri Ailə Məcəlləsi ilə tənzimlənir. Prezident İlham Əliyevin "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanına uyğun olaraq 1 noyabr 2019-cu ildən etibarən övladlığagötürmə ilə bağlı idarəetmə Əmək Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Xanlar Sətullayev deyib. O bildirib ki, övladlığagötürmə prosesi üç mərhələdən ibarətdir-övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması, övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi və övladlığagötürmə barədə məhkəmə qərarının qəbul edilməsi: "Övladlığagötürmə üçün müraciət bu ardıcıllıqla həyata keçirilir: Övladlığa uşaq götürmək istəyən valideyn-namizəd onunla birgə yaşayan 18 yaşdan yuxarı olan şəxslər ilə birlikdə notariat orqanına müraciət edərək övladlığagötürmə ilə bağlı ərizə təqdim edir. Notarial qaydada təsdiq edilən ərizə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi vasitəsilə altsistemə ötürüldükdən sonra valideyn-namizəd tərəfindən övladlığagötürmə ilə bağlı müraciət etmək üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "e-sosial.az" internet portalında "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə altsistemi"ndə qeydiyyatdan keçməklə şəxsi kabinet yaradılır. Valideyn-namizəd şəxsi kabineti yaradaraq qeydiyyatdan keçdikdən sonra əyani tibbi müayinənin nəticəsində arayışların alınması üçün qeydiyyatda olduğu xəstəxanadan (poliklinikasından) vərəm xəstəliyinin daşıyıcısı olub-olmadığı barədə tibbi arayışla müvafiq tibb müəssisələrinə yaxınlaşmalıdır:



Valideyn-namizəd şəxsi kabinetinə müvafiq sənədləri daxil edir, müraciət formasını doldurur və təsdiq edir. Təsdiq edilmiş müraciət aidiyyəti üzrə baxılması üçün Sosial Xidmətlər Agentliyinə yönləndirilir. Sosial Xidmətlər Agentliyi tərəfindən valideyn-namizəd uçota alınır. Valideyn-namizədin müraciətində qanunvericiliyə zidd olan hallar aşkar olunduqda imtina edilir və valideyn-namizəd digər mərhələlərə buraxılmır. Əks halda isə övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğunu müəyyən etmək üçün övladlığa götürmək istəyən şəxs (şəxslər) uçota alınır, övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə aparılır, övladlığa götürmək istəyən şəxs (şəxslər) təlimlərə cəlb edilir, övladlığa götürmək istəyən şəxsə (şəxslərə) uyğun uşaq, övladlığa götürülən uşağa uyğun valideyn seçilir, övladlığa götürülən uşaqla övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uşağın yerləşdiyi müəssisədə görüşü təşkil edilir, övladlığa götürülən uşaq sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) evində yerləşdirilir

Övladlığagötürmə prosesində valideyn-namizədlərin uçotu üçün valideyn-namizədin özü və onunla birgə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslərin ərizəsi (notariat orqanı tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş), valideyn-namizədlər barədə fərdi məlumatlar (soyadı, adı, atasının adı, cinsiyyəti, doğum tarixi, doğulduğu yer, FİN-i, yaşayış yeri, o cümlədən faktiki yaşadığı yer (ünvan), vətəndaşlığı), özü və onunla birgə yaşayan şəxslər haqqında övladlığa imkan verməyən xəstəliklərin olub-olmamasına dair (psixiatrın rəyi də daxil olmaqla) valideyn-namizədin əyani tibbi müayinəsi əsasında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sağlamlıq haqqında arayışı, ailə vəziyyəti barədə məlumat (nikah və ya nikahın pozulması haqqında şəhadətnamənin nömrəsi və tarixi), iş yeri (o cümlədən vəzifəsi), əmək haqqı və başqa gəlirləri haqqında məlumat (o cümlədən, son 12 aylıq dövr üçün bank hesabından çıxarış), mülkiyyətində olan daşınmaz əmlaklar, o cümlədən nəqliyyat vasitələri barədə məlumat; məhkumluq haqqında məlumat (məhkum olunma tarixi, cəzanın növü, müddəti, azad edilmə tarixi, azad edilmə üçün əsas), aliment, kredit və digər öhdəlikləri barədə məlumat, öz qohumunu (bacısı, qardaşı, nəvəsi, qardaşının və ya bacısının övladı, valideynlərinin bacısı və ya qardaşının övladları) övladlığa götürdükdə - qohumluq əlaqələrinin təsdiqi barədə məlumat (doğum haqqında şəhadətnamənin surəti), əcnəbilərə və vətəndaşlığı olmayanlara münasibətdə həmçinin - miqrasiya sənədi üzrə məlumatlar (nömrəsi, verilmə tarixi, etibarlılıq müddəti, verilmə əsası) tələb olunur. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, övladlığa uşaq götürmək üçün minimum yaş həddi ögey ata (ögey ana), habelə qohumlar (bacıqardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla nikahda olan şəxslər üçün 25 yaş, nikahda olmayanlar üçün isə 30 yaş hesab olunur. Üzrlü hesab edilən hallarda bu yaş həddi məhkəmə tərəfindən artırılıb azaldıla bilər. Valideyn-namizədlə övladlığa götürmək istədiyi uşaq arasındakı yaş fərqi isə 18-dən az olmamalıdır".

Onun sözlərinə görə, məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər, məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, qanunla üzərinə qoyulan vəzifəni yerinə yetirmədiyinə görə qəyyum və ya himayəçi vəzifələrindən kənarlaşdırılmış şəxslər, əvvəllər məhkəmə tərəfindən təqsirkar bilinərək bu hüququ ləğv edilmiş şəxslər, şəhhətinə görə valideyn vəzifələrini həyata keçirə bilməyən şəxslər, məhkumluğun götürülməsi və ödənilməsi nəzərə alınmadan, sülh və insanlıq, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə, həyat və sağlamlıq, şəxsiyyətin azadlığı və ləyaqəti, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə qəsdən törədilən ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər və bu cinayətləri törətdiyinə görə barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş şəxslər, barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər (cinayət təqibi müddətində), nikahda olmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər övladlığa uşaq götürə bilməzlər: "Bundan başqa dispanser müşahidəsinin I, II və V qruplarına aid olan şəxslərdə vərəm xəstəliyi, bütün növ infeksion (yoluxucu) xəstəliklər, lokalizasiyasından asılı olmayaraq III və IV dərəcəli bədxassəli yenitörəmələr, dispanser müşahidəsi bitənədək psixi (ruhi) və davranış pozuntuları, narkomaniya, toksikomaniya (dərman asılılığı) və alkoqolizmdən əziyyət çəkən şəxslər də övladlığa uşaq götürə bilməzlər."

**_Söylü Ağazadə_**

# "Kreml tezliklə Ermənistan üçün zəngi çalacaq"





## ƏCNƏBİ EKSPERTLƏR

Qərbin Ermənistana təlim keçməsi prosesi davam edir. Avropa İttifaqının (Aİ) son ideyalarından biri Ermənistan vətəndaşları üçün vizasız rejim yemidir. Aİ bu məsələyə baxacağını vəd edir. Ancaq aydındır ki, Brüssel bu cür "səxavətli üstünlükləri" boş yerə vermir. Və Gürcüstanın nümunəsindən istifadə edərək, Aİ Qərblə saxta dostluq və ticarətin son dərəcə baha başa gəldiyini açıq şəkildə göstərdi. Ermənistan Qərbdən gələn sədəqələrə görə nədən imtina etməli olacaq? O, Aİ-nin hansı göstərişlərinə əməl etməli olacaq? Rusiyalı politoloqlar bu haqda proqnozlarını "Caliber" analitik mərkəzinə açıqlayıblar. Ekspertlərin fikirlərini oxucularımza təqdim edirik.

Beynəlxalq məsələlər üzrə ekspert,



siyasi elmlər namizədi Renat Savinin fikrincə, Aİ-nin postsovet məkanında təsir dairələrinin yenidən bölüşdürülməsinə yanaşmaları bir neçə onilliklər ərzində dəyişməyib.

"SSRİ-nin dağılmasından bəri Aİ bu məkanda öz təsirini gücləndirmək siyasətini inkişaf etdirir, ümumiyyətlə, eyni texnologiyalardan istifadə edir. Aİ inandırma siyasəti olaraq bu və ya digər ölkəyə sıx əməkdaşlıq, açıq sərhədlər və ittifaqın tamhüquqlu üzvü olmaq şansı vəd edir. Və ilk baxışda elə görünür ki, sanki vədini yerinə yetirir. Lakin sonra elə bir dövr gəlir ki, bu proseslərin dinamikası nəzərəçarpacaq dərəcədə azalır və Aİ bütöv şərtlər paketi irəli sürür və onlar olmadan Avropaya inteqrasiya prosesinin baş verməyəcəyini əsas gətirir.




Artıq Qərblə razılaşmalar olduğundan və ölkə onları həyata keçirmək üçün artıq müəyyən yol qət etdiyindən "qurban"ın oyunun şərtlərini qəbul etməkdən başqa çarəsi yoxdur.

Bu yanaşma bir müqayisə ilə yekunlaşdırıla bilər: tələyə düşmək. Gürcüstanın timsalında bunun reallıqda necə baş verdiyini görürük, Qərbin təzyiqi hətta ona bu qədər loyal olan ölkə hökumətini də hiddətlənməyə vadar edib- "Gürcü arzusu" Qərb tərəfdaşlarına etiraz etmək qərarına gəlib. Çünki aydın idi ki, Qərb mahiyyət etibarı ilə gürcü cəmiyyətini ələ keçirməyə, onu ram etməyə, kənardan gələn bütün əmrlərə hazır olmağa çalışır. Allaha şükürlər olsun ki, "Gürcü arzusu" vaxtında işığı gördü və anladı ki, Avropa inteqrasiyası üçün çox yüksək qiymət ödəmək təhlükəsi var- Rusiya ilə qarşıdurmanın kəskin artması da daxil. Aydın məsələdir ki, Tbilisidə ağlı başında olan heç kim Kiyevin səhvlərini yenidən sınamaq fikrində deyildi.

Ermənistanla, məncə, hər şey demək olar ki, eyni ssenari üzrə inkişaf edir. Və Paşinyanın Ermənistanı Avropa ailəsinə qəbul etmək vədləri üçün nə qədər hazır olacağı hələ də bəlli deyil. Ancaq geri dönüş nöqtəsini keçmək təhlükəsi var- o zaman ki, İrəvan Rusiya ilə əlaqələri kəsmək üçün çox işlər görəcək və keçmiş sərhədlərə qayıtmaq çox gec və mənasız olacaq. Məsələn, Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi tənqidi şəkildə artacaq və ya İrəvan Qərbin dəstəklədiyi yeni silahlı kampaniyaya başlayacaq. Ermənistan isə iki atəş arasında qalacaq. O zaman analitiklərin danışdıqları məqam gələ bilər- Ermənistan dövlətçiliyinin tamamilə itirilməsi. Qərblə bu qədər fəal əməkdaşlığa can atan Ermənistanın baş nazirinin hadisələrin bu cür inkişafı haqqında düşünməməsi təəccüblüdür",- R.Savin bildirib.

Tanınmış politoloq Dmitri Qradovun fikrincə, Ermənistanın "Avropa yolu" erməni xalqı üçün böyük faciənin başlanğıcı kimi görünür.



"Qərbin Ermənistanın siyasi "resetlənməsi" layihəsini nə qədər sürətlə inkişaf etdirməsi çox narahatedicidir. Görünən odur ki, Vaşinqton və Brüssel bu vəzifələri həyata keçirməyə çox tələsirlər, bu isə o deməkdir ki, tezliklə Cənubi Qafqazda "hava çox isti ola bilər". Ukrayna xalqına vəd olunmayan Avropa "cazibəsinin" Ukraynada necə inkişaf etdiyini xatırlayaq. Aydındır ki, "vizasız səyahət" rejiminin qəbulu Ermənistanın gələcəyi üçün dönüş nöqtəsidir. Bu, həm də Rusiya üçün Ermənistanın nəhayət Qərbin protektoratı altına keçməsinə dair qəti işarədir. Aydındır ki, Ermənistan vətəndaşları üçün belə bir Qərb "kökəsi" çox şirin ola bilər ki, bu da onları Rusiyasız da çox şey edə biləcəklərinə inandırır. Amma yox, Moskva hadisələrin bu dönüşünü son dərəcə ağrılı qəbul edə bilər. Və düşünürəm ki, Kreml tezliklə zəng çalacaq- Ermənistana xatırladacaqlar ki, Aİİ ilə güzəştli münasibətlərə yenidən baxıla bilər. Bu xəbər isə İrəvanı sarsıdacaq",- D.Qradov bildirib.

***Tərcümə - Elçin Bayramlı***

---



Elçin Bayramlı

# İtirilmiş nəsil

***Azərbaycanda əbədi problemlərdən biri də nəsillərarası estafetin ötürülməsi ilə bağlıdır. Xüsusən də kadrlarla bağlı məsələlərdə. Son dövrlərdə həm dövlət, həm də ictimai təşkilatlarda daha çox gənclərin irəli çəkilməsi tendensiyası müşahidə olunur. Əlbəttə, hər hansı bir təşkilatda, idarədə, nazirlikdə bir şəxsin çox üzün dövrdə vəzifədə qalması istər-istəməz həmin strukturda ətalət yaradır, yenilənməyə və müasir tələblərə cavab verən iş prinsiplərinin bərqərar olmasına mane olur. Məhz bu səbəbdən son dövrlərdə dövlət strukturlarında, özəl müəssisələrdə, ictimai təşkilatlarda bu proses gedir- pensiya yaşını keçmiş nəsil gənc nəsillə əvəzlənir. Bu dediyimiz kimi çox müsbət haldır, lakin burada bir balaca "əmma" var.***

Bu "əmma" ondan ibarətdir ki, əksər hallarda bu dəyişiklik baş verərkən bir mərhələ hoppanma baş verir, nəsillər arası davamlılıqda qırılma olur. Belə ki, yaşlı nəsli ortayaşlı nəsil əvəzləmək əvəzinə, gənc nəsil əvəzləyir. Yəni, konkret misalda desək, 70-80 yaşlı bir şəxsi məsul vəzifədən azad edirlər, amma yerinə... 30 yaşlı gənci təyin edirlər. Burada artıq davamlılıq, sistemlilik pozulur. O gəncdən daha təcrübəli, daha bilikli, daha çox dünyagörüşə malik orta nəsil var, onlar sanki itir, buxarlanır.

Əvvəla, bu gənc məsul vəzifə üçün hələ hazır deyil, ola da bilməz. Xalqın, ölkənin taleyinə təsir göstərəcək qərarları hazırlayan, qəbul edən 30 yaşlı şəxsin yaşı, həyat təcrübəsi, bilik bazası, insanlarla işləmək üçün psixoloji hazırlığı yetərli deyil. Buna görə də, o nərdivanın bir neçə pilləsini birdən hoppanıb keçəndə burada problem olur. Lakin orta yaşlı nəsil, deyək ki, 1965-1985-ci illər arası doğulanlar, hazırda 35-55 yaş arası şəxslər həm yaşlılardan, həm də gənclərdən bütün sahələrdə daha üstündürlər, təəssüf ki, onlara həm dövlət, həm də ictimai təşkilatlarda çox az rast gəlinir.

Bu nəsil tarixin ən keçməkeşli dövrünü, ən aktiv prosesləri yaşayıb- Sovet dövrunu də görüb, müstəqilliyin əldə olunması dövründəki proseslərdə iştirak edib, beynəlxalq və ölkədaxili siyasi proseslərin içində olub, 1-ci Qarabağ müharibəsində döyüşüb, ölkənin yenidən qurulmasında əsas işçi qüvvə olub, həm əvvəlki, həm də sonrakı sosial və iqtisadi sistemləri, bilir, üstəlik, o müasir texnologiyaların yaranması və formalaşmasında lap başdan iştirak edib, daha çox xarici ölkələrdə olub görüb-götürüb, ölkəni və xalqı daha yaxşı tanıyır. Beləliklə, bu nəsil idarəetmə və peşəkarlıq cəhətdən ideal nəsildir. Çünki, həm yaşı, həm dünyagörüşü, həm təcrübəsi, həm bilik səviyyəsi, həm texnoloji sahəyə bağlılığı, həm psixoloji vəziyyətinə görə hər iki nəsildən üstündür. Bu, "Qızıl Orta" nəslidir. Lakin bu nəsil ortalıqda görünmür, başqa sözlə desək, bu, itmiş, itirilmiş nəsildir.

Son dövrlərdə çox uzun müddət vəzifələrdə ilişib qalmış bu çox yaşlı (70-80) nəsildən bezən vətəndaşlarımız tələb edirdilər ki, onlar dəyişilsin, yerinə gənclər təyin edilsin. Bir çox hallarda belə də edildi. Lakin çox azsaylı istisnalarla bu, əksər hallarda bu heç də yaxşı nəticə vermədi. Həmin sahədə daha çox problemlər yarandı, əvvəlkindən daha çətin vəziyyət yarandı.

Məhz bu səbəbdən də bu itirlmiş ortayaşlı nəslin "tapılması" və onların dövlət və ictimai strukturlarda irəli çəkilməsi, daha soğrusu yaşlı nəsli əvəzləməsi lazımdır. Belədə, həm nəsillər arası əlaqə pozulmaz, həm yanaşma daha optimal olar, həm də yaşlı və gənc nəsilə xarakterik problemlər aradan qalxar. Estafet sistemi də pozulmaz- yaşlı nəsil estafeti ortayaşlı nəslə verməli, onlarda sonradan onu gənc nəslə ötürməlidirlər. Yəni, hər dəfə gənc nəsil aşağıdan başlayır, təcrübə bilik dünyagörüşünü artıraraq orta yaşda məsul işlərə başlayır və yaşlandıqda yerini orta nəslə verir, həmin orta nəsil də öz yerini gənclərə verir. Beləliklə, həm təbiətin qanunları pozulmur, həm cəmiyyət sistemi sağlam olur, həm də ölkədə zamanın tələblərinə uyğun inkişaf baş verir.

Dövlət sistemində, ictimai və siyasi təşkilatlarda, özəl strukturlarda belə yanaşmaya üstünlük versə, bu, ölkəmiz və xalqımız üçün daha çox faydalı olar. İtmiş, daha doğrusu itirilmiş nəsli tapmalıyıq və ölkənin və xalqın yükünü onların üzərinə qoymalıyıq. Heç şübhə yoxdur ki, onlar bu yükün öhdəsindən digər nəsillərə nisbətən daha yaxşı gələcəklər və ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.

# Gəl bir qəhvə içək, sağlamlığın sağlığına!






ARAŞDIRMA

Bəzi alimlər onun xeyrindən, bəziləri isə zərərli təsirindən əmindir. Qəhvə nədir, nədən hazırlanır və insan orqanizminə zərər verirmi? Əslində, qəhvənin xeyri və ya zərəri barədə olduqca çox elmi məqalələr, araşdırma nəticələri olsa da, yekdil rəy yoxdur. Qəhvənin asılılıq yaratması isə elmə və dolayısı ilə bizə çoxdan məlumdur, onu içən bir də istəyirsə bu tərkibindəki kofeindən xəbər verir. Aparılan araşdırmalara görə gündə bir fincan qəhvə baş ağrısına, xüsusilə miqrenə, qara ciyərə və mədə narahatlıqlarına qarşı faydalı olur. Çeşidli araşdırmalara görə, həddindən artıq qəhvə istehlakı ürəyin ritmini pozur, kofenin tərkibindəki kofein çox istehlak edildikdə, ürəkdə ritm pozğunluqları meydana gələ, nizamsız ürək döyüntüləri isə tənginəfəsliyə və ürək çatışmazlığına səbəb ola bilər. Həkimlər ürək xəstələrinin məhdud miqdarda qəhvə içmələrini tövsiyə edir.



Qeyd edək ki, hələ 2003-cü ildə Edinburq Universiteti mütəxəssislərinin apardığı bir tədqiqatla, qəhvənin təzyiqə təsiri ilə bağlı maraqlı bir nəticə əldə edilmişdi. Nizamlı olaraq gündə 4-5 fincan qəhvə içənlər üzərində aparılan araşdırmalarda qan təzyiqinin sürətlə yüksəlməsi müşahidə edilib. Qəhvə, xora kimi mədə problemlərinə səbəb olmasa da, xora olan mədəyə əks-təsir göstərir, yaranın dərinləşməsinə səbəb olur. Qəhvə, mədənin daha çox turşu ifraz etməsinə təkan verir.

Maraqlıdır ki, qəhvə şəkərli diabet xəstələri üzərində fərqli nəticələr də göstərir. Amerikada aparılan araşdırmalarda, yemək vaxtlarında yüksələn qan şəkərinə rəğmən bir fincan qəhvə içən şəkərli diabet xəstələri orqanizmlərinə ciddi zərər vururlar. Bir çox ekspert qəhvənin bədəndə maye itkisinə səbəb olduğunu iddia edir, bir qisim ekspert isə bunun yalnız iddia olduğu qənaətindədir.

Bəs əslində qəhvə insan orqanizminə necə təsir edir? Bunu araşdırarkən əldə etdiyimiz məlumatlara görə, qəhvə böyrək daşının yaranma riskini azaldır. Hər gün 3 fincan qəhvə qəbul edən insanlarda qəbul etməyənlərə nisbətən bəzi ağır xəstəliklərin nəticəsi olan ölüm riski təxminən 10 faiz azaldığını iddia edənlər də amerikalı alimlərdir. Dünyanın ən böyük xərçəng araşdırma mərkəzlərindən biri hesab edilən Amerikanın Milli Xərçəng Təşkilatının araşdırmasına bir il ərzində 400 min insan könüllü olaraq qoşulub. Araşdırma 50-71 yaş aralığında olan insanlar arasında aparılıb. Araşdırmanın aparılmasında könüllü olan insanların yarısı bir il müddətində hər gün 3 fincan qəhvə içməyi öhdəlik götürüblər. Digər könüllülər isə bu müddət ərzində gündə bir fincan qəhvə qəbul ediblər. Nəticələri "New England Journal of Medicine" jurnalında nəşr olunan araşdırmaya görə gündə üç fincan normal ya da kafesinsiz qəhvə içən insanların ürək-damar, tənəffüs, şəkər xəstəlikləri, infarkt riskinin gündə bir fincan qəhvə içənlərə görə daha azdır.




Maraqlıdır ki, qəhvənin birmənalı olaraq orqanizmə xeyir olduğunu deyən amerikalı mütəxəssislərdən fərqli olaraq rusiyalı ekspertlər qəhvənin zərərləri barədə iddialıdır. Rus ekspertlər ifrat qəhvə qəbulunun mədədə turşu ifrazatını artırdığını deyirlər. Mədəsində problemləri olan insanların gündə 2 fincandan artıq qəhvə içməsini tədrici intihar kimi qiymətləndirən mütəxəssislər həddən artıq qəhvə qəbulunun ürəyin döyünmə ritminə mənfi təsir göstərdiyini də deyirlər.

Rus mütəxəssislər həmçinin deyir ki, yemək yedikdən dərhal sonra qəhvə, xüsusilə şəkərli qəhvə içmək doğru deyil. Bunu yemək yeyən kimi qanda şəkərin miqdarı artması və bu zaman şəkərli qəhvənin qəbulunun bu prosesi daha da sürətlənməsi ilə izah edirlər. Yeməkdən sonra şəkərli qəhvə qəbul etməyi adət halına gətirmiş insanlarda şəkər xəstəliyinin yaranması da istisna edilmir. Ona görə də, bir çox ölkələrdə həkimlər şəkər xəstələrinə qəhvənin fərdi təyin edilmiş qaydada qəbuluna icazə verirlər. Təsadüfü deyil ki, bir neçə il öncə Türkiyədə vərdiş etdikləri üçün gündə 4-5 fincan qəhvə qəbul edən insanlar üzərində aparılan araşdırmaların nəticəsində məlum oldu ki, yüksək miqdarda qəhvə qəbulu təzyiqin anidən yüksəlməsinə də səbəb olur.

Qeyd edək ki, qəhvənin ən böyük xeyri orqanizmin maddələr mübadiləsini sürətləndirməsidir. Dövrümüzdə şəkərsiz qəhvəni həm arıqlamaq üçün, həm də qan təzyiqini normallaşdırmaq üçün içənlər çoxdur. Qəhvə aşağı təzyiqi olan insanlara kömək ola bilər, çünki qan təzyiqini normada saxlayır. Gün ərzində 1-2 fincandan çox qəbul edilməsi isə əksinə, orqanizmə zərər verə bilər. Qəhvə qatqısız olmalıdır. Tərkibində quru süd olan qəhvələr çəki artımına səbəb ola bilər.



Azərbaycanda indiyədək qəhvənin xeyri və ya zərəri barədə heç bir araşdırılma aparılmayıb. Bu mövzu ilə bağlı bir neçə tanınmış tibb aliminə müraciət etsək də çoxusundan konkret cavab ala bilmədik. Elə bu səbəbdəndir ki, yerli mətbuatda bu mövzuda yazılan bütün yazılar yalnız xarici araşdırmaların nəticələri əsasında hazırlanır.

İtaliya alimlərinin silsilə araşdırmaları maraqlı nəticələr təqdim edib. Məlum olub ki, qəhvə qanda xolesterolu salır, ağrıkəsicilərin təsirini 40% artırır, xərçəng riskini azaldır, gündə 3 fincan qəhvə astma təhlükəsini minimuma endirir, nəfəsi təravətləndirir, sümükləri gücləndirir. Bir şərtlə ki bu təmiz, saf qəhvə olsun. Amma yaşlıların çox qəhvə istehlak etməməsini məsləhət görən italiyalı alimlər bildirir ki, qəhvənin normal dozada qəbulu insanı parkinson (mərkəzi sinir sistemində dofamin neyronlarının dağılıb məhv olması) xəstəliyindən qoruyur. Qəhvə selülit kimi dəri problemlərini də aradan qaldırır, həm içmək, həm də qəhvə dəmi ilə masaj etmək sellülitlərdən xilas edir. Qəhvə yüksək təzyiqin yaranmasına mane olur, pankreas (mədəaltı vəzi) xərçənginin yaranma riskini azaldır, miqren ağrılarına kömək edir.

Bunlardan əlavə, qəhvənin ürək, qan-damar xəstəliklərinin böyük nisbətdə aradan qaldırdığı iddia edilir, bildirilir ki, bağırsaqların normal fəaliyyətini təmin edən qəhvə həmçinin depressiyaya qarşı yaxşı mübarizə vasitəsidir. Müntəzəm olaraq gündə 1 fincan qəhvə içənlərin qaraciyər xəstəliklərindən daha az əziyyət çəkdiyi isə artıq çoxdan sübut edilib. Qəhvə bundan əlavə diqqətin cəmlənməsinə kömək edir, onu qəbul edənin özünü daha gümrah hiss etməsinə vasitəçilik edir.

Qeyd etmək lazımdır ki, yaşıl və qara çay kimi qəhvənin də tərkibində antioksidantlar var və bu da xərçəngə yol açan hüceyrələrin çoxalmasına ciddi nisbətdə mane olur. İmmuniteti gücləndirməklə bərabər qəhvənin tərkibində baş ağrısı dərmanlarında olan bəzi keyidici və ağrını azaldan maddələr də var. Məlumat üçün qeyd edək ki, qəhvə ağacı bol yağışlı, orta temperatur 18-24 dərəcə olan, buzlaşma olmayan iqlimdə yetişir. Soyuqda ağac ölür, çox isti hava da qəhvə ağacına zərər verir. Bu ağac yağışı sevdiyi üçün mütamadi yağış olan iqlimlərdə becərilir. Yasəmənə bənzəyən çiçəyi yaşıl meyvə verir, ağac ildə bir neçə dəfə bar gətirir.

***Lalə Mehralı***



# Harris hücuma keçir və...

## Le Figaro: Demokratların namizədi Amerikanı təcrid etməyə davam edəcək

***Avropalılar Kamala Harrisin qələbəsinə böyük ümidlər bəsləyirlər. Seçilsə, o, heç bir radikal addım atmayacaq və müttəfiqləri ilə kəskin fasilə yaratmayacaq - bununla belə, o, Amerikanı Avropa İttifaqından uzaqlaşdırmağa davam edəcək. Cəbhədə vəziyyət dondurulsa, hər hansı siyasi və ya diplomatik təşəbbüslər Kəmalə Harrislə Donald Tramp arasında duelin nəticəsinə qədər təxirə salınmalı olacaq.***

Ardıcıl üçüncü ildir ki, müharibə şəraitində olan Ukraynada yayın qızmar çağıdır. Lakin bu dəfə prezident seçkilərindən əvvəl amerikalıların adət etmədiyi təhlükəli siyasi boşluq yaranıb. Ağ Evin sahibi olacaq şəxsin kimliyi hələ də dəqiq bilinmir. Hazırkı prezident yarışının çılğınlığı həmişəkindən daha qalın olacaq. NATO-nun Vaşinqtonda keçirilən son sammitində hər kəsin ağlında yalnız bir şey var idi: "ABŞ prezident seçkiləri". Vladimir Zelenski Ukraynanın istənilən yeni Amerika prezidenti ilə anlaşa biləcəyini deyir. Hərdən açıq-aydın olanı inkar etsə də, narahatlığı göz qabağındadır. Tramp gəlsə danışıqların istiqaməti də, Vaşinqtonun köməyi də dəyişə bilər. Seçkilərin nəticələri haqqında düşünməzdən əvvəl ukraynalılar müharibə bataqlığında hələ nə qədər qalacaqlarından narahatdırlar. Rusiya hərbi donanmasını demək olar ki, tamamilə nəzarət etdikləri Qara dənizlə bağlı vəziyyəti bir kənara qoysaq, ruslar irəliləyirlər. Fransa diplomatik mənbəsinin məlumatına görə, bütün səylərinə baxmayaraq, Xarkova hücum əmri almış rus hərbçiləri gündə 1000-1200 nəfər itirsələr də cəbhə xəttini keçə bilmir. Cəbhənin qərb tərəfindəki itkilər barədə isə heç bir məlumat verilmir. Lakin onlar yavaş-yavaş və israrla əraziləri itirməkdədirlər. Fransa Beynəlxalq Münasibətlər İnstitutunun (IFRI) mütəxəssisi Tatyana Kastueva Rusiyaya həsr olunmuş tədbirdə "Və situasiyada həlledici dəyişiklik yarada biləcək heç bir sehrli silah yoxdur" deyib.

Çətinliklərə Qərbin ilin əvvəlindən qərarsızlığı da əlavə olunur. ABŞ-da Ukraynaya yardımın taleyi Demokratların noyabrda qazanacağı qələbədən asılıdır - bu, Kamala Harrisin ümidverici ilk addımlarına baxmayaraq, hələ çox uzaqdadır. Avropalılara gəlincə, onlar bilirlər ki, amerikalılar geri çəkilsələr, bütün məsuliyyəti öz üzərlərinə götürə bilməyəcəklər. Bundan əlavə, onların Kiyevi dəstəkləməklə bağlı sözlərinə güney əyalətləri getdikcə məhəl qoymur. Hər iki tərəf cəbhədə çətinliklər yaşayır, lakin Rusiya Qlobal Cənubla münasibətlərdə diplomatik qələbə qazanıb ki, onlar Moskvanı qınasalar da, ona qarşı sanksiyalar tətbiq etmirlər, Qərbin mövqeyini birmənalı qarşılamazlar. Bir növ maksimalizmin təzahürüdür ki, biz təhlil edirik ki, şərtlər dəyişir.

### Çin Rusiyanın dayanıqlığının əsas sponsorudur

Qlobal cənub ölkələrinin, xüsusən də Çin, İran və Şimali Koreyanın dəstəyi hərbi əməliyyatı davam etdirmək üçün onlardan silah və hərbi texnika alan Rusiya ordusunun dayanıqlılığını izah edir. Rusiya isə üçüncü ölkələrdən hərbi yardım almadığını bildirir. Onlarla bağlantılar, həmçinin artıq sadalanan ölkələr, habelə Hindistan və Türkiyə tərəfindən dəstəklənən Rusiya iqtisadiyyatının dayanıqlığını izah etməyə kömək edir. Onların köməyi sayəsində Kreml sanksiyalardan yan keçə və iqtisadi artımı 6,1%-ə qədər proqnozlaşdıra bilir. Əsaslar - məhsuldarlıq və inflyasiya - ürəkaçan olmasa belə, müharibə iqtisadiyyatı sistemin hələlik ayaqda qalması üçün kifayət qədər təkan verir. "Rusiya iqtisadiyyatı ekspertlərin proqnozlaşdırdığından qat-qat yaxşı işləyir, Qərbin sanksiyaları nəinki Rusiyanın qərarlarına təsir göstərə bilmədi, həm də ilk dəfədir ki, avropalılara Moskvanın özündən daha çox əzab verdi" - deyə, hazırda Fransada yaşayan rusiyalı politoloq və iqtisadçı izah edib. Bütün bu səbəblər, eləcə də keçmiş populyarlığını çoxdan itirmiş Vladimir Zelenskiyə təzyiq göstərən gərgin vəziyyət prezidenti iyulun ortalarında - hərçənd, əvvəllər, hələ ötən ilin əvvəlindən Rusiya ilə danışıqlar mövzusunu qaldırmağa məcbur etdi. Kremlin hərbi əməliyyatı tabu sayılırdı. Son sorğulara görə, Ukrayna əhalisinin 43%-i danışıqların tərəfdarıdır. Vladimir Zelenski noyabrda bu dəfə Rusiyanın iştirakı ilə yeni sülh sammitinin təşkilini təklif edib. İyun ayında keçirilən əvvəlki sammit İsveçrədə keçirilib. Orada nə Rusiya, nə də Çin təmsil olunmayıb. Heç bir xüsusi qərar qəbul edilməyib.

Ukrayna lideri danışıqlara hazır olmaq məsələsini qaldıranda Co Bayden hələ də namizədliyini geri götürməmişdi və Donald Trampın qalib gələcəyi proqnozlaşdırılırdı. Zelenski bu yolla Amerikanın xarici siyasətində mümkün dönüşə hazırlaşmaq istəyirdi. Rusiya onun sülh planının müddəalarını qəbul etməlidir, lakin hazırda bu baş vermir. Zelenski üçün Rusiyanın şərtlərini qəbul etməkdən söhbət gedə bilməz: Ukraynanın itirilmiş dörd bölgəni və Krımı təslim etməsi, həmçinin NATO və Qərb düşərgəsinə qoşulmaqdan imtina etməsi, başqa sözlə, kapitulyasiya. Prezidentin mövqeyini öz ərazilərini Rusiyaya verməkdən imtina edən ukraynalıların 83%-i bölüşür. Moskvanın işğal etdiyi rayonları tərk etmək bütün xalq dəstəyinə baha başa gələcək.

Ukrayna prezidenti danışıqlara və dialoqa açıqlıq göstərməklə həm də öz tənqidçilərini onu sülh prosesinin başlanmasına əsas maneə adlandıran arqumentlərdən məhrum etmək istəyib. "Ruslar ukraynalıları ekstremistlər kimi qələmə verir və özləri üçün diplomatik nizamlanma tərəfdarı obrazı yaratmaq istəyirlər", - neşrin Fransa Xarici İşlər Nazirliyindən olan həmsöhbəti əlavə edir. Zelenski üçün söhbət həm də münaqişənin əvvəlindən Moskvaya meyl edən qlobal Cənub ölkələrini öz tərəfdarları sırasına cəlb etməyə çalışmaqdan gedir. Onlardan bəziləri - məsələn, Çin və Braziliya - öz sülh planını təqdim ediblər ki, bu da Kiyev üçün çox əlverişsizdir. Nəhayət, bu təşəbbüs Ukrayna liderlərinə ən azı nəzəri cəhətdən məsuliyyəti danışıqlara açıq olduğunu dəfələrlə bəyan edən Rusiyanın üzərinə atmağa imkan verir.

### Trampdan yan keçmə cəhdi

Alyansın Vaşinqton sammiti zamanı müttəfiqlər, həmçinin, Ukraynanı Ağ Evin mümkün hücumlarından qorumaq üçün ona "NATO-ya" hərbi yardım kanalları təqdim etməyə söz veriblər. Lakin Donald Tramp seçilərsə, diplomatik dairələrdə NATO ilə fasilənin "basit versiyaları" adlandırılan tədbirləri tətbiq edə bilər: məsələn, respublikaçı Şimali Atlantika Alyansının kollektiv özünüidarəetmə məsələlərini tənzimləyən 5-ci maddəsinə istinad etmək istəmədiyini ifadə edə bilər. Kamala Harris qalib gəlsə, Ukraynaya yardımın gələcəyi daha parlaq olacaq. Amma hazırkı vitse-prezident ölkənin ən yüksək vəzifəsinə seçilərsə, Barak Obamadan bəri hər bir prezidentin yeritdiyi Amerikanın Avropa siyasətini zəiflətmək kursunu davam etdirəcək və şübhəsiz ki, intensivləşdirəcək. Transatlantik münasibətlərə dair ənənəvi baxışın möhkəm dayağı olan Co Bayden, bəlkə də ortaq siyasi, mədəni və strateji baxışla birləşən Amerika və Avropanın dərin və davamlı ittifaqı qoruyub saxlaması ideyasının sonuncu tərəfdarlarından biri idi. Amerika siyasətçilərinin yeni nəsilləri Asiyaya - ya da yalnız öz ölkələrinə və onun problemlərinə baxır.

### Kamala Harris, şən pişik xanım

Böyük siyasətdə olan ailələr əvvəlki cazibələrini itiriblər, UnHerd yazır. Amerikalılar, nikahdankənar münasibətlərin karyeralarını bitirə biləcəyi siyasətdə "ailə dəyərləri" dövründən xeyli yol qət ediblər. Və bu mənada Kəmalə Harris müasir siyasətçi imicinə tam uyğun gəlir. Kamala Harrisin prezidentliyə namizəd kimi təmsil etdiyi bütün mərhələlərə baxmayaraq, onun şəxsiyyətinin eyni zamanda rəqiblərini alovlandıran və tərəfdarlarını gücləndirən bir cəhəti var. Qalib gəlsə, Harris ilk qadın prezident olmaqdan daha çox olacaq. O, öz uşaqları olmayan birinci prezident olacaq.

59 yaşlı Harris, on ildir vəkil Duqlas Emhoffla evlidir və onu "Ana" (açıq desək, sevimli) adlandıran iki yetkin uşağının ögey anasıdır. Bu onun ilk evliliyidir. Ondan əvvəl o, bir neçə dəfə yüksək səviyyəli romanslar yaşayıb, o cümlədən televiziya aparıcısı Montel Williams və San Fransisko siyasətçisi Villi Braun ilə evil olub. İkinci məşuqu Harrisdən nəinki 30 yaş böyük olub və bir rayon vəkili kimi karyerasında ona kömək edib.

Harrisin sevgi hekayəsi və ailə keçmişi bir çox fərqli şəkildə təsvir edilə bilər: "qeyri-adi", "çaşqın", "müasir", hətta "dağınıq". İndiki gənclər onun kimi insanları "dəcəl qızlar" adlandırırlar, bu söz cilovsuz əyləncə ilə (kokain istifadəsi və bəzən emosional pozulmalar ilə birlikdə) qeyd olunan həyat tərzi kimi yenidən ortaya çıxıb. Ancaq bunu nə adlandırırsınızsa, siyasətdə nikahdankənar münasibətlərin karyeraya son qoya biləcəyi, hətta adi bir boşanmanın belə bəzi şübhələrə səbəb olduğu aydın şəkildə müəyyən edilmiş "ailə dəyərləri" dövründən nə qədər irəli getdiyimiz təəccüblüdür.

Prezidentliyə namizədin o vaxtkı platonik idealı hələ də rahatlatıcı şəkildə tanış görünür: gözəl, lakin çox da təxribatçı olmayan arvad və bir neçə məktəb yaşlı uşağın müşayiəti ilə kostyum geyinmiş, bir qədər sadə orta yaşlı kişi. Ailəsi bu modelə uyğun gəlməyən prezidentliyə namizəd legitimlik uğrunda gərgin mübarizə ilə üzləşib. Hər hansı fərqli olan kəs, əksinə, bu qanuna mümkün qədər dəqiq riayət etməklə Amerikanın etibarını qazana bilərdi. Təsadüfi deyil ki, ABŞ-ın ilk qaradərili prezidenti Barak Obama estetik baxımdan Harrisin şəhər ətrafında yaşayan atası ilə demək olar ki, fərqlənmir.

Digər tərəfdən, indiki nəsil böyük siyasətçilərin ailələri, prinsipcə, artıq əvvəlki kimi deyil. Respublikaçı namizədi götürək: o, hətta məşhur azadlıqsevər Bill Klintonu adi bir skaut kimi göstərir. Donald Tramp iki dəfə boşanıb, üç fərqli qadından beş övladı var, ədəbsiz davranışları ilə məşhurdur və bu yaxınlarda arvadı olarkən münasibətdə olduğu bir porno ulduza səssiz rüşvət vermək üçün partiya pullarından istifadə etdiyinə görə bir neçə cinayət cəzası alıb. Başqa sözlə, o, minilliyin əvvəlindən partiyasının bəyan etdiyi "ailə dəyərlərindən" mümkün qədər uzaqdır.

Nəticə çaşqınlıqdır, heç kim həqiqətən nə edəcəyini bilmir. Co Baydenin dediyi kimi, "xiyaban pişiyinin əxlaqı" iyrəncdir və qəddardır. Bu arada, sağçı mühafizəkarlar Harrisi fahişə, uşaq qatili, kommunist muzdlu olduğu, onun yalnız şəxsi məlumatlarına görə işə götürüldüyünü və ümumiyyətlə uşaqsız pişik xanımların sevimlisi olduğunu tənqid edir. Bundan sonra digərləri onu tərifləməyə başlayırlar. Bu uyğunsuzluq hər iki partiyanın prezidentlik yarışına qatılan namizədlərinin daxili xüsusiyyətlərini açıb göstərr. Bill Klintonu dəstəkləyən demokratların Trampın nikahdankənar əlaqələrindən qəzəblənməsi və guya ailə dəyərlərinin tərəfdarı olan respublikaçıların Amerikada doğum nisbətinin aşağı düşməsindən şikayətlənməsi və dərhal IVF-ni necə qadağan edə biləcəklərini müzakirə etməyə başlaması sadəcə kədərli bir tamaşa deyil. Gərginlik daha da dərinləşir: artıq ailə və seçki simpatiyaları arasında aydın əlaqələr qurmaq mümkün deyil. Bu ayın əvvəlində Respublikaçıların Milli Qurultayında prezident Trampın vitse-prezidentliyə namizədi J.D.Vensın arvadı Uşa Vens ərini dəstəkləmək üçün səhnəyə çıxanda mütərəqqi fikir adamları dəhşət içində saçlarını yolurdular. 2021-ci ildə Fox News kanalından ideoloji rəqiblərini ələ salan, onları "uşaqsız pişik xanımlar" kimi ifşa edən səs yazısı çıxanda Vens partiya yoldaşları arasında çoxlu düşmənlər qazandı, uşaqsız insanların (eyni Harris də daxil olmaqla) olduğuna işarə edərəb bildirdi ki, onlara dövlət qulluğunda yeri yoxdur. Ola bilsin ki, bir dəfə Respublikaçı siyasətçi nəzarətsiz şəkildə uşaqsızlığı eqoizmlə eyniləşdirə bilib. Nə olursa olsun, döyüş əlcəksiz davam edəcək: "çox şəxsi" artıq yoxdur və siyasətçilərin ailələri artıq mərhəmət gözləməsinlər. Amma istehza ondadır ki, şəxsi həyat siyasi həyatla (həm sol, həm də sağ üçün) nə qədər çox qarışırsa, dövlət xidməti ailə adamları üçün bir o qədər cəlbedici olmur: məlum səbəblərə görə onlar ailələrini və dostlarını riskə atmaq istəmirlər. Müdrik siyasi addım bu insanları açıq-aşkar "yararsız" və ya demokratiyada iştirak etməyə layiq olmayan kimi rədd etmək deyil, övladsız pişik xanımların cəsarətli və vaxt aparan məşğuliyyətlər üçün görünməmiş imkanlara malik olduğunu qəbul etməkdir.

**V.VƏLİYEV**

# KTMT-dən NATO-ya "inteqrasiya"



Ermənistan birnin çətirindən çıxmamış digər bir ölkənin qucağına sığınmaq istəyən bir ölkə təsiri bağışlayır. Hələlik niyyətini həyata keçirə bilmir, hərçənd sözdə İrəvan bütün arzularını gerçəkləşdirib, Rusiyadan ayrılıb (oxu, boşanıb - müəllif) Avropa ilə izdivaca girib. Hətta silahlanaraq Qarabağda hakimiyyətini bərpa da edib. Bir az da uzağa gedərək Azərbaycandan təzminat da alıb... Əlbəttə, bütün bunlar ermənilərin xam xəyallarıdır. Nə Rusiya onu əldən buraxana oxşayır, nə də Avropa Ermənistanı qazanmaq üçün ortaya durulur. Yalnız sözdə İrəvanın yanındadır, iki-üç sınıq-salxaq piyada daşıyan "Bastiyon"ları Ermənistana göndərməklə ermənilərin başını aldadır. Ermənistan Avropaya inteqrasiya etmək üçün əvvəlcə Rusiya ilə masa arxasına keçməli, uzunmüddətli müqavilələrin talağını geri oxutdurmalı, borclarını bir-bir ödəməli, rusiyalı sərhədçiləri, ən sonda isə Rusiyanın 102-ci hərbi bazasını öz ərazisindən çıxarmalıdır. Yalnız bundan sonra yeni "gəlinlik-fata-toy" barədə düşünə bilər.

Belarus prezidenti Aleksandr Lukaşenko ötən həftə Rusiyaya işgüzar səfər edib. O, Sankt-Peterburqa uçub və burada onu Rusiya Federasiyasının Şimal paytaxtının qubernatoru Aleksandr Beqlov qarşılayıb. Lukaşenko daha sonra helikopterlə Kareliyanın Ladoqa gölündəki Valaam adasına uçub. Orada Vladimir Putinlə görüşüb. Prezidentlər Smolensk monastırının ərazisindəki Smolensk İkonunun məbədini ziyarət ediblər. Daha sonra qapalı formatda ünsiyyətlərini davam etdiriblər. Əsas diqqət beynəlxalq və regional gündəmə, Belarus-Rusiya əməkdaşlığına yönəldilib. Eyni zamanda, İrəvana Vaşinqtonun mesajı da müzakirə olunub: Birləşmiş Ştatlar 2025-ci ildə Ermənistana "islahatlar və Avro-Atlantik inteqrasiya səyləri üçün" 65 milyon dollar verəcək. Amerika Erməni Assambleyasının məlumatına görə, bu təşəbbüs ABŞ Senatının Təxsisatlar Komitəsinin bu həftə təsdiq etdiyi qanun layihəsində yer alıb.







Bildirilir ki, Komitə Ermənistan və Azərbaycan arasında davamlı sülh sazişinin əldə edilməsi səylərini dəstəkləyir və Dövlət Katibinə və USAİD-in administratoruna akt əsasında ayrılan vəsaitlərin bölüşdürülməsi zamanı bu cür danışıqların vəziyyətini nəzərə almağı tapşırır. Komitə Qarabağda münaqişə zamanı döyüşlərdən zərər çəkmiş ərazilərdə humanitar minatəmizləmə və partlamamış hərbi sursatların təmizlənməsi fəaliyyətini dəstəkləyir.

Rusiya sülhməramlılarının Dnestryanı əraziyə yerləşdirilməsinin 32-ci ildönümünü qeyd edilib. Dnestryanı bölgənin lideri Vadim Krasnoselski qala tədbirində deyib: "Rusiya sülhməramlıları və Dnestryanı sülhməramlılar, lazım gələrsə vətənlərini müdafiə etməyə hazırdırlar. Dnestryanı silahlı qüvvələrinin hərbi qulluqçuları da öz missiyalarını yerinə yetirirlər. Biz özümüzü qorumağa borcluyuq və bunu edə bilərik. İstənilən müharibə bitər. Sülh olacaq və bu qaçılmazdır. Siyasətçilərin hər şeyi tələsdirmək gücü var. Bəs onda niyə gələcəyə qənaət edib insanları və iqtisadiyyatı itirmək lazımdır? İndi məşğul olun. Şübhə etmirəm ki, bütün bu eskalasiyalar, terror aktları həyata keçirmək cəhdləri təcavüz anlarıdır, lakin bunların hamısı keçəcək".

Yeri gəlmişkən, Moldova vətəndaşlarından Ukraynadakı hadisələrə münasibəti soruşulub, "Gagauzinfo" portalı xəbər verir ki, respondentlərin 55%-i münaqişənin dayandırılması və Rusiyanın işğal etdiyi rayonların Rusiyanın ixtiyarına buraxılması ilə razılaşıb, 32%-i isə buna qarşı çıxıb. Vətəndaşların 49%-i əmindir ki, Rusiyanın Ukraynada qarşısına qoyduğu vəzifələri yerinə yetirməyə yaxınlaşır, 29%-i isə bununla razı deyil. Respondentlərin 59%-i Ukraynaya daha çox silah verilməsinin əleyhinədir. Respondentlərin əksəriyyəti hesab edir ki, Ukrayna Rusiyanı məğlub edə bilməyəcəyi üçün hərbi əməliyyatları davam etdirməməlidir. Respondentlərin 53%-i Avropa İttifaqına, 58%-i NATO-ya inteqrasiyanın əleyhinə olub. Sorğu IMAS sosioloji şirkəti tərəfindən aparılıb.

Ötən həftə Bişkekdə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin baş prokurorlarının iclası keçirilib. Tədbirdə Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Türkiyə, Azərbaycan və Türkmənistanın nümayəndələri, UTC-nin baş katibi və Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvü iştirak ediblər. İştirakçılar TDT çərçivəsində dövlətlərin əsas prokurorluq orqanları arasında əməkdaşlığın gücləndirilməsi perspektivlərinə dair məruzələrlə çıxış ediblər. Ölkələrin nümayəndələrinin fikrincə, bu istiqamətdə birləşmə daha qlobal çağırışlara cavab strategiyasının formalaşdırılmasına və ölkələrin hüquqi sabitliyinin artırılmasına kömək edəcək. Xüsusilə, transmilli cinayətkar qruplaşmalar, beynəlxalq və daxili terrorizm, kibercinayətkarlıq məsələləri böyük diqqət tələb edir.

## Bu arada...

Türkiyə və Ermənistanın xüsusi nümayəndələri iyulun 30-da danışıqlar aparacaq, Reuters mənbələrə istinadən xəbər verir. Görüşün məqsədi iki ölkə arasında münasibətlərin normallaşdırılması olacaq. "Görüşdə xüsusi nümayəndələr iki ölkə arasında həyata keçirilə biləcək etimad münasibətlərinin gücləndirilməsi üçün bəzi addımları müzakirə edəcəklər", - deyə agentliyə diplomatik mənbə bildirib.

Reuters agentliyinin həmsöhbətinin aydınlaşdırdığı kimi, görüş Türkiyə-Ermənistan sərhədi yaxınlığında təşkil olunacaq. Onun sözlərinə görə, Türkiyə tərəfi vəziyyətin normallaşmasının yalnız Azərbaycanla danışıqlarda irəliləyişdən asılı olduğunu bildirsə də, İrəvanla münasibətlərin bərpasına çalışır. 1993-cü ildə keçmiş "Dağlıq Qarabağ"da müharibə başlayandan sonra Türkiyə Azərbaycana dəstək məqsədilə Ermənistanla diplomatik və ticarət əlaqələrini kəsib. Bundan sonra ölkələr arasında danışıqların dörd raundu keçirilib. Sonuncu 2022-ci ildə baş verib. Ermənistan nümayəndə heyəti Türkiyə rəsmiləri ilə görüş üçün dövlət sərhədinə gəliblər. Ermənistan parlamentinin vitse-spikeri Ruben Rubinyanın rəhbərlik etdiyi nümayəndə heyətinin Marqara keçid məntəqəsinə çatdığı bildirilir. Qeyd edək ki, görüş ilk olaraq sərhədin Ermənistan tərəfində başlayacaq, günün ikinci yarısı Türkiyə tərəfində davam edəcək.

***V.VƏLİYEV***

# "Fransa üçün "idman siyasətdən kənardır" prinsipinin əhəmiyyəti yoxdur"

"İdman siyasət deyil, dövlətin gücünü, nüfuzunu dünyaya nümayiş etdirsə belə, bu, sadəcə bir oyundur". Bu sözləri SİA-ya açıqlamasında deputat Rəşad Mahmudov deyib. Deputat bildirib ki, idman sağlamlıq, xalqlararası əlaqələrin gücləndirilməsi kimi qlobal əhəmiyyət daşıyır: "Amma bəzən elə hallar olur ki, böyük idman hadisəsi hansısa dövlətin çirkin məqsədlərinə xidmət etmək üçün istifadə olunur. Son təəssüf doğuran idbar təxribat nümunəsini özünü "Avropa demokratiyasının beşiyi" kimi təqdim etməyə çalışan Fransanın ifasında gördük.

Əslində, Fransa uzun müddətdir əlinə düşən hər fürsətdən istifadə edərək Azərbaycana qarşı təxribatlar həyata keçirməyə can atır. Rəsmi Bakının beynəlxalq nüfuzunu korlamaq və onu ləkələmək istəyən Paris heç bir əxlaq normalarına sığmayan siyasi təxribatlara, manipulyasiyalara yol verir. Olimpiya oyunlarının açılış mərasiminin yayımı zamanı Fransanın "Fr2" telekanalının efirində şərhçinin Azərbaycan əleyhinə səsləndirdiyi yersiz və təhqiramiz ifadələr buna



sübutdur. Milyonlarla insanın izlədiyi yayımda otuz il ərzində Azərbaycan ərazilərini işğal altında saxlayan ermənilərin "dost", beynəlxalq hüquq normalarına uyğun olaraq ərazi bütövlüyünü bərpa edən azərbaycanlıların isə "təcavüzkar" qismində təqdim edilməsi Fransanın ucuz və səviyyəsiz manipulyasiyaları özünə rəva görən dövlət olduğunu təsdiqlədi.

Bəlkə fransızlar unudurlar ki, tarixən Olimpiya oyunları zamanı sülhə, müharibə və münaqişələrə son qoyulmasına çağırışlar edilir. Olimpizmin əsas idealları xalqlar arasında hörmət və qarşılıqlı anlaşma, insan ləyaqətinin qorunması, idman vasitəsilə şəxsiyyətin çoxyönlü və ahəngdar inkişafı uğrunda mübarizə olub. Bəs Fransa Olimpiadanın ev sahibi kimi nə ilə yadda qaldı? Görünən odur ki, Paris idman prinsiplərinə zidd mövqe, qərəz nümayiş etdirərək əsl xislətini bir daha sərgilədi. Dünya bir daha əmin oldu ki, Fransa üçün "idman siyasətdən kənardır" prinsipinin heç bir əhəmiyyəti yoxdur".

"Təbii ki, Fransanın qəbulolunmaz davranışları ilə ölkəmiz barışmaq fikrində deyil. Bu təxribatla bağlı artıq Beynəlxalq Olimpiya Komitəsinə müraciət edilib. Gənclər və İdman Nazirliyi və Olimpiya Komitəsi Parisin təxribatından sonra bəyanatında da ölkəmizin mövqeyi aydın şəkildə ifadə olunub. Bəyanatda xüsusilə qeyd olunur ki, Fransanın bu əməli faktiki olaraq Olimpiya Xartiyasının Əsas Prinsiplərinin pozulmasıdır. Həmin Xartiyada qeyd edilir ki, "BOK-un missiyası olimpizmi bütün dünyada təbliğ etmək, Olimpiya Hərəkatına rəhbərlik etmək, idmana və idmançılara qarşı hər hansı siyasi və ya kommersiya istismarına qarşı çıxmaqdır". Deputat sonda qeyd edib ki, göründüyü kimi, Paris işğalçı Ermənistan kimi beynəlxalq sənədlərə etinasız yanaşır, ədalətin və haqqın yox, siyasi konyukturaya uyğun davranmağı daha üstün tutur.

BMT-nin Təhlükəsizlik Şurasının, NATO-nın üzvü və Avropa İttifaqının yaradıcılarından biri olan Fransa unutmamalıdır ki, ümumbəşəri insan hüquqlarının qorunması prinsipləri pozmağa heç bir mənəvi haqqı yoxdur. Beynəlxalq münasibətlər sisteminin məsuliyyətli üzvü kimi Azərbaycan bütün hallarda Fransanın təxribatlarına qarşı layiqli cavabı verir və bundan sonra da verəcək" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Hamı irəli can atanda Nurəddin Məmmədli geri addımlayır



Sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkilərinin təbliğat-təşviqat kampaniyasına sayılı günlər qalıb. İddialı namizədlər təbliğat-təşviqat dövrünün imkanlarından istifadə etməklə öz platformalarını, görəcəkləri digər işlər barədə seçicilərə məlumatlar verəcəklər. Təbii ki, bu zaman rəqib namizədlər arasında debatların, diskusiyaların olması mümkündür. Daha doğrusu, debatların təşkili vacib seçki prosesindəndir. Bu zaman seçici kimin daha mükəmməl namizəd olduğunu və onları Milli Məclisdə təmsil edə biləcəyini aydınlaşdırmaq imkanı qazanacaq. Əminliklə demək olar ki, xalqın partiyası olan Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədlərin danışmağa kifayət qədər sözləri və fikirləri var. Bu baxımdan YAP-ın namizədlərinin istənilən siyasi partiyanın namizədi ilə debatda üstünlük əldə edəcəyi şübhəsizdir. Bunu istər ”boykot”çular, istərsə də seçkiyə qatılan və şanslarını yoxlamağa çalışan istənilən partiyanın namizədləri çox yaxşı anlayırlar. Ona görə də, müxtəlif şoular və məzhəkələrlə cəmiyyətimizin ləyaqətli insanlarından olan Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədlərə qarşı qarayaxma kampaniyası aparırlar. Bu istiqamətdə Milli Şuranın və AXCP-nin trol dəstəsi daha çox fəallıqları ilə seçilirlər. Əli Kərimlinin sosial şəbəkələrdə saxladığı muzdlu ”trol” və ”saxta profil” dəstəsi hər gün eyni şər və böhtanları səsləndirir və eyni sifarişli tezisləri ifadə edirlər.

### Ə.Kərimli normal vəziyyətdə deyil

Dağıdıcı müxaliflər özlərinin ağılı ilə seçkiləri ”boykot” ediblər. Hətta Ə.Kərimli Qənimət Zahidin TV-sinə verdiyi açıqlamasında utanıb-çəkinmədən iddia edib ki, guya onların ”boykot” taktikası olmasa idi, cəmiyyətdə seçki ab-havası hiss olmayacaqdı. Əlavə olaraq o fikri də vurğulayır ki, onların ”boykot” qərarı seçki prosesinə heç bir təsir göstərməyəcək. Hər iki fikrini analiz edərkən o nəticəyə gəlmək olar ki, Ə.Kərimli normal vəziyyətdə deyil. Yəni onun ağır psixoloji durumda olduğu sezilir. Çünki ağlı başında olan normal insan bir-birinə zidd fikir söyləyə bilməz. Xüsusilə də, özünü siyasətçi olaraq cəmiyyət sırımağa çalışan şəxs fikirlərini ölçüb-biçdikdən sonra dilə gətirməlidir. Ə.Kərimlinin düşünmədən fərqli fikirlər söyləməsi onun ağır psixoloji vəziyyətdə olduğunu göstərir. Bu da başa düşüləndir. Ən azı ona görə ki, AXCP nəinki cəmiyyətdə, eyni zamanda, müxalifət düşərgəsində belə qəbul edilmir. Yəni AXCP düşərgə daxilində təklənmiş vəziyyətindədir. Digər tərəfdən Ə.Kərimlinin xaricdəki antimilli ünsürlərlə də ciddi problemləri yaranıb. Səbəb də xaricə qaçıb müxtəlif çətirlərin altına sığınan Arif Məmmədov, Sevinc Osmanqızı, Trol Sadıqlı, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli və digərləri Ə.Kərimlini qorxaqlıqda günahlandırır və dolayısı ilə ayrılan maliyyə vəsaitlərini havaya sovurmaqda ittiham edirlər. Hətta ABŞ-da məlum qaranlıq qüvvələrin əlaltısı olan Sevinc Osmanqızı TV-sində Ə.Kərimlinin çıxışlarına qadağa qoyub. Halbuki, ABŞ-a vaqe olan dəqiqədən S.Osmanqızı Ə.Kərimli ilə eyni düşünüb hərəkət edib, birgə addımlar atıblar. Hər gün Ə.Kərimli Sevinc Osmanqızının TV-sinin qonağı olub, qaranlıq dairələrin mətbəxtində hazırlanaraq onlara təqdim olunan tezisləri ifadə edirdi. İndi isə ”yaxın dost”lar arasında bütün körpülər yanıb. Hazırda hər iki tərəf bir-birini xəyanətdə, satqınlıqda günahlandırırlar. S.Osmanqızı bir qədər də irəli gedərək Ə.Kərimlini və ətrafını hakimiyyətə işləməkdə ittiham edir. Təbii ki, tərəflər arasında baş verən qarşıdurmanın kökündə dayanan başlıca səbəb Ə.Kərimlinin xəstə ağac kimi günü-gündən çürüməsidir. Vəziyyət bu cür davam edəcəyi təqdirdə Ə.Kərimli tam şəkildə iflasa uğrayaraq siyasət meydanını tərk edəcək.

### Nurəddin Məmmədli AXCP-nin yeni qurultayının gündəliyindən narahatdır

Bu arada AXCP-nin ”Siyasi partiyalar haqqında qanun”un tələbinə uyğun olaraq yeni qurultayına hazırlaşması müəyyən maraqlı məlumatlar üzə çıxarıb. Məlum olur ki, Ə.Kərimlinin ağır psixoloji vəziyyətdə olmasının səbəblərindən biri də qurultaya hazırlıqların onun planlarına uyğun getməməsidir. Birincisi ona görə ki, Ədliyyə Nazirliyini reyestrindən təkrar qeydiyyatdan keçmək üçün təqdim etdiyi 5 şəxsin yarıdan çoxu hazırda fərli siyasi partiyalara transfer ediblər və ya partiyadan istefa veriblər. Bu isə qurultay şousu baş tutsa belə, yekun nəticələrlə bağlı protokolların Ədliyyə Nazirliyinə təqdim edilməsində ciddi problemlər yaradacaq. İkincisi, qurultay parlament seçkilərini ”boykot” etdiklərinə görə Ə.Kərimli başda olmaqla kollegial orqanlara etimadsızlıq göstərə bilər. Məhz bu amilləri nəzərə aldığından Ə.Kərimli qurultayın süni şəkildə vaxtını uzatmağa çalışır. Vəziyyətdən çıxmaq üçün Ə.Kərimli AXCP Ali Məclisinin sədri Nurəddin Məmmədlini qabağa verməklə problemi üzərindən atmağa çalışır. Fars-molla rejiminin əmməməli mollalarından heç nə ilə fərqlənməyən N.Məmmədli qurultaya hazırlıqla bağlı danışarkən özünü tam şəkildə rüsvay edir. Bu 81 yaşlı məxluq gah qurultaya hazılıqların normal axarı ilə getdiyini deyir, gah da süni əngəllərlə üzləşdiklərini iddia edir: ”AXCP-nin qurultayının nəticələri tanınmadı. Bu səbəbdən hazırda partiyanın növbədənkənar qurultayının keçirilməsinə hazırlıq gedir. Ölkənin hər yerində rayon şöbələrinin məclisi, ümumi yığıncaqları və konfransları keçirilir. Bu tədbirlər həddən artıq çox olduğuna görə, kimlərisə fərqləndirib şəkillərini paylaşmaq istəmirəm”. 79 yaşlı zavallı sayıqlamağı da unutmayır: ”Dövlət orqanlarının səlahiyyətlilərinə səslənirəm ki, vaxtınız olduqca, sosial şəbəkələrdə bu hadisələrin gedişini izləyin”. Bu qoca məxluq elə başa düşür ki, dövlət orqanlarının hansısa əməkdaşı işini -gücünü atıb, onların sərsəm, heç kimə lazım olmayan statuslarını izləməli, videolarına baxmalıdır.

Nurəddin Məmmədli iki dədəf Azərvbbaycan professoru olmasına baxmayaraq 5-ci sinif şagirdi qədər savadı yoxdur. Savadı olsa idi anlayardı ki, onların fəaliyyətləri cəmiyyət üçün maraqsızdır. Bu, ona dəlalət edir ki, hamı irəliyə can atanda N.Məmmədli geriyə addımlayır. Qurultaya gəlincə isə, söz yox ki, tədbir baş tutmayacaq. Çünki rayon şöbələrinin əksəriyyəti buralıb, məclis üzvləri fəaliyyətlərini dayandırıblar. Bunun fonunda AXCP-nin kollegial orqanlarında Ə.Kərimlinin parlament seçkilərini ”boykot” qərarına narazılıqlar var. Bu və digər amillər səbəbindən AXCP-nin qurultayı baş tutmayacaq. Nəticədə Ə.Kərimli yenidən hay-küy qaldırıb, diqqəti qurultaydan yayındırmağa çalışacaq. Lakin qanun hər şeydən üstündür. Ə.Kərimli qanuna riayət etməsə, AXCP-nin qeydiyyat məsələsinə yenidən baxılacağı şübhəsizdir.

***İLHAM ƏLİYEV***

# Tələbələrin köçürülməsi üçün sənəd qəbulunun müddəti uzadılıb



Tələbələrin köçürülməsi üçün sənəd qəbulunun müddəti 1 avqust 18:00-a qədər uzadılıb. Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən SİA-ya verilən məlumata görə, həmin tarixədək təhsil müəssisəsini, ixtisasını və ya təhsilalma formasını dəyişmək istəyən tələbələr portalda qeydiyyatdan keçərək ”şəxsi kabinet” yaratdıqdan sonra, istifadəçi adı və şifrədən istifadə etməklə ”Ali və orta ixtisas təhsili pilləsində təhsilalanların köçürülməsi” xidmətinə daxil olub, köçürülmək üçün elektron müraciət formasını doldurub təsdiq edə bilərlər. Qeyd edək ki, köçürülmə üçün müraciət edən tələbələrin məlumatları təhsil müəssisələri tərəfindən yoxlanılır və müraciətin statusu barədə şəxsi kabinetə bildiriş göndərilir. Bu səbəbdən müraciətçilərə şəxsi kabinetini mütəmadi olaraq izləmək tövsiyə olunur.



İLHAM

# “Azəriqaz” əhalidən küsüb

Bir nəfər hamı üçün təmiz, ləyaqətli şəxs ola bilməz. Kimlər tərəfindənsə matahı göylərə qaldırılan şəxs başqaları üçün dəyərsiz, bivecin biri hesab oluna bilər. Söhbət qruplara və ya təşkilatlara, müəssisələrə münasibətdən gedəndə, burada tərəddüdlər etmək lazım gəlir. Çünki dövlət qurumu pis fəaliyyətdə ola bilməz. Dövlət strukturu əhalinin maraqlarına tam cavab verməlidir. Müəssisə rəhbəri və onun işçiləri ədalətli olmalı, qarşılarına qoyulan vəzifəni, üzərlərinə düşən işi ən yüksək formada yerinə yetirməlidirlər. Təəssüflər olsun ki, bu tələblərə və qaydalara bəzi dövlət qurumları riayət etmirlər. Xüsusilə də, ”Azəravtoyol” Açıq Səhmdar Cəmiyyəti və ”Azəriqaz” İstehsalat Birliyi sanki cəmiyyətdən küsüblər. İctimaiyyətlə təmasdan qaçır, problemlərə laqeyd yanaşır, tövsiyə və məsləhətləri qulaqardına vururlar. Hər iki dövlət qurumu, necə deyərlər, bir bəla olub keçiblər bu millətin boğazına. Necə gəldi işləyir, kimə gəldi atırlar, əhalinin mənafeyni nəzərə almaq haqqında belə düşünmürlər. Ümumiyyətlə, əvvəldən, yəni keçmiş nəqliyyat naziri Ziya Məmmədovun dönəmindən yol-nəqliyyat sistemindən heç xoşum gəlmirdi. Nədən? Ona görə ki, Ziya Məmmədovun çoxlu qoçu dəstəsi vardı, onlar yolda-irzdə gedib gələnlərə ilişib, kobudluq edirdilər. Elə hallar olurdu ki, taksi sürücülərini təpiklərinin altına sərib çiləyirdilər. Heç polislər də yaxın dura bilmirdilər. Yazıq, biçarə taksi sürücülərinin haray-həşirləri, məlırtiləri ürəkləri göynədib, qəlbləri ağrıtsa da, heç kim cəsarət edib gözləri dönmüş bıçaqlara yaxın durmurdular. Nədən ki, can şirin şeydir, olmadı belə, oldu elə: Bıçlar təpiklərinin altında inildəyən taksi sürücüsündən əl çəkib, ”yaxşı oğlan” olmaq istəyən şəxsi Ağadadaş Ağayevin gününə sala bilərdilər. Belə bir hal olmuşdu. Tanınmış bir aktyor beynəlxalq avtovağzal ətrafında taksi sürücüsünün qəlbləri göynədən harayına dözməyib, hadisə yerinə yaxınlaşmış və bu zaman peşman edilmişdir. Deyilənə görə, tanınmış aktyor bir-iki təpik, bir iki də şillə yemişdi. Düzdür, düzüb-qoşub məsələni ört-basdır etdilər. Aktyor da səhərisi gün ona göstərilən münasibətdən razılığını ifadə etdi, dişləri də ağarır, üzü də gülürdü. Yəqin ki, işi düzəlmişdi.

Nə isə... İndi yol-nəqliyyat adı gələndə narahat oluram. Əsasım da var. Ziya Məmmədovun qoçu dəstəsini başqa ad altında digər bir nazirlik yerinə yetirməyə çalışır. 40 minə yaxın taksi sürücüsünü işsiz qoyub, nümayişkaranə şəkildə bildirirlər ki, taksi sürücüləri gedib, ictimai nəqliyyatda çalışsınlar. Başa düşmürlər ki, birincisi, avtobus idarə etmək üçün kateqoriya lazımdır. İkincisi isə, ”BakuBus”da sürücü olaraq çalışmaq üçün bacarıq və təcrübə başlıca şərtlərdəndir. Heç biri yoxdursa, taksi sürücüsü necə və hansı formada ”BakuBus”un sürücüsü olsun? Ya bunlar kasıb təbəqənin insanları ilə məzələnirlər, ya da barmaqlarına dolayırlar. ”Azəriqaz” da eyni ilə ”Azəravtoyol”un yerişini yeriyir. Daha doğrusu, bu qurum xüsusi ”istedadına” və ”bacarığına” görə ”Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətini kölgəsində qoyub. Elə ad çıxardıb, elə bir mərəkə qoparıb ki, çətin uzun illər yaddaşlardan silinsin. ”Azəriqaz” İstehsalat Birliyinin ilişmədiyi, sataşmadığı abonent qalmayıb. Birincisi, əhaliyə verilən mavi yanacağın təzyiqi aşağıdır, keyfiyyətsizdir. İkincisi, deyilənə görə, borulara hava vurub, əhaliyə satırlar. Elə kənd və qəsəbələr var ki, orada boru kəmərləri olsa da, mavi qaz yoxdur. Bəzən ”Azəriqaz”ın rəhbər heyəti and içirlər ki, ölkənin 90 faizi qazlaşdırılıb. Araşdıranda deyilənlərin əsassız olduğu üzə çıxır. Bu səbəbdəndir ki, meşə örtüyü tədricən sıradan çıxır. Əhali qazla təchiz olunmadığından bar verən meyvə ağaclarını kəsib, qışda evlərini isitmək üçün istifadə edirlər. Ümumiyyətlə, onların bütün işləri baş-ayaqdır. Özləri təsdiq edirlər ki, lazım olanda sayğacları irəli, lazım olan da isə geri işləyir.

Əndərəbadi şoudan əziyyəti çəkən isə əhali olur. Bir də görürsən ki, smart tipli sayğac sahiblərinə böyük məbləğdə borc gəlir. Deyirsən: ”qardaş və ya əmi, sayğacda balansı kart vasitəsi artırıram, necə ola bilər ki, mən borclu qalım?” . ”Azəriqaz” əməkdaşı təkəbbürlə, baş barmağını qaldırıb, ”şikayətiniz varsa, yuxarı müraciət edin” . Təbii ki, işin yuxarı düşdü, vay sənin halına, uzun müddət get-gəldən sonra səni borclu çıxarıb, boynuna yıxdıqları borcu ödətdirəcəklər. İndi də qarşıdan qış fəsli gəlir. ”Azəriqaz”ın min bir oyunu o zaman başlayacaq. Əhali də buna hazır olsun. Məndən demək və xəbərdar etməkdir.

# Parisin çirkli suları Senaya axıdılır - Olimpiada rəzilliyi

## CNN: Bu səbəblə çayda triatlon məşqi ləğv edilib

Sena çayında quraşdırılan yeni çirkab sutəmizləyici qurğular öz vəzifələrinin öhdəsindən gələ bilmir. Belə ki, Olimpiadanın açılışına kölgə salan son yağışlardan sonra çay sularında E.coli-nin səviyyəsi yenidən bütün icazə verilən normaları keçib. Bu səbəbdən məşqlər ləğv edilir və yarışların özü təhlükə altındadır. Cümə günü Olimpiadanın açılış mərasimini yaxşıca isladan yağış artıq Parisə yağmağı dayandırdı, amma Sena çayının problemləri hələ də qalır. Suyun keyfiyyətsizliyinə görə triatlon yarışı ləğv olunmaq təhlükəsi ilə üz-üzədir. İyulun 31-ə təyin edilən yarış çox güman ki çayda çirkliliyin normadan dəfələrlə çox olması səbəbindən keçirilməyəcək. Təşkilatçılar isə çıxış yolu kimi alternativ də təqdim etməyiblər, çünki yoxdur.Fransanın paytaxtını ikiyə bölən məşhur çayda üzgüçülük üzrə bəzi yarışların keçiriləcəyi açıqlananda bu, problem ortaya çıxdı. Sena çayında üzgüçülük 100 ildən çox əvvəl qadağan edilib, lakin olimpiadaya ev sahibliyi edən şəhəri ən yaxşı şəkildə təmsil etmək üçün təşkilatçılar çayı təmizləmək planı hazırlayıblar ki, dünyanın ən yaxşı idmançıları 2024-cü il Oyunları zamanı orada üzə bilsinlər.Əslində, bu, riskli bir hərəkətdir. Parisdə bütün cümə və şənbə günlərində yağan yağış kimi Senadakı çirklənmə adətən şiddətli yağışlardan sonra kəskin şəkildə artır. Bazar ertəsi çayda məşq ardıcıl ikinci dəfə ləğv edilib, çünki suyun keyfiyyəti testləri bunun idmançılar üçün təhlükəli olduğunu göstərib. Bununla belə, təşkilatçılar yarışın planlaşdırıldığı kimi baş tutacağına əmindirlər. Kişilər arasında triatlon yarışı çərşənbə axşamı, qadınlar arasında isə çərşənbə günü keçiriləcək. Gözlənilməz hallar zamanı alternativ tarixlər



müvafiq olaraq cümə axşamı və cümə günləridir."Növbəti 36 saatlıq hava proqnozunu nəzərə alaraq, Paris 2024 təşkilat komitəsi və Beynəlxalq Triatlon İttifaqı iyulun 30-da triatlon başlamazdan əvvəl suyun keyfiyyətinin normallaşacağına əmindir", - iki təşkilatın birgə bəyanatında deyilir. Böyük Paris bu həftə başlayan və triatlonla üst-üstə düşən yayın ilk isti dalğasına hazırlaşır. Önümüzdəki günlərdə həm yüksək, həm də aşağı temperaturlar orta səviyyədən xeyli yuxarı olacaq, bu da Fransanın aparıcı meteorologiya departamenti Meteo-Fransanın yerli vaxtla bazar ertəsi günortadan sonra 39 müxtəlif yer üçün narıncı isti xəbərdarlığı etməyə sövq edir. Paris və paytaxt regionunda minimum temperatur çərşənbə axşamı və çərşənbə günü yüksələcək və 18-22 dərəcə Selsi arasında dəyişəcək. Maksimum temperatur isə 34-36 dərəcəyə çatacaq. Triatlon yarışları məhz bu günlərdə baş tutacaq. Çərşənbə axşamı və çərşənbə günü arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.Oyunlar ərəfəsində çayın təmizlənməsinə təxminən 1,5 milyard dollar xərclənib və Paris hakimiyyəti Senanın yarışların keçirilməsi üçün yararlı olduğunu nümayiş etdirmək üçün əsl şou göstərib. Paris meri Ann Hidalqo Olimpiadadan sonra çayda hovuz tikəcəyini vəd etməzdən əvvəl suyun "yüksək keyfiyyətinə" inamını nümayiş etdirmək üçün çayda üzüb. Fransanın idman naziri də Sena çayına etimad göstərərək özünü çaya vurub.

Amma laborator müayinələrin cavabı fərqli mənzərəyə şahidlik edir. Çirklənmənin aradan qaldırılması üçün əsas infrastruktur layihələrindən biri Austerlitz su anbarı adlanan yeni yağış suları kanalizasiyasıdır. Paris rəsmilərinin açıqlamasına görə, onun içindəki suyun həcmi 20 olimpiya hovuzuna bərabərdir.İyunun 17 və 18-də yağan yağışlardan sonra kollektor 80% dolu olub. O, Paris merinin dediyi kimi, 40 milyon litr yağış və çirkab suyunun Sena çayına tökülməsinin qarşısını alır. Ancaq suyun keyfiyyəti sürətlə dəyişir. Rəsmi məlumatlar onu deməyə əsas verir ki, hətta bircə yağış suda E. coli səviyyəsini çox tez artıra bilər - bu, iyunun 30-da baş verən hadisədir. Əvvəlki gün yağan yağışdan sonra E. coli səviyyələri yarışın başlayacağı III Pont Alexandre ətrafındakı ərazidə 100 ml su üçün təxminən 2000 koloniya əmələ gətirən vahidə (CFU) qədər yüksəlib. Bu, Beynəlxalq Triatlon İttifaqının standartları ilə suyun keyfiyyətinin "yaxşı" hesab edildiyi səviyyədən iki dəfə çoxdur.Oyunlara qədər olan ayın çox hissəsində E. coli səviyyəsi icazə verilən həddən yuxarı idi - bu, idmançıların sağlamlığını ciddi risk altına atan bir haldır. E.coli-nin səviyyəsi 100 ml-də 1000 CFU-dan çox olduqda, Beynəlxalq Triatlon İttifaqının qaydalarına əsasən, ittifaqın tibb komitəsi yarışın davam etdirilə biləcəyinə qərar vermədiyi təqdirdə, triatlon üzgüçülük yarışı ləğv edilə bilər.Fərdi yarışda triatlon yarışları bir kilometr yarımlıq üzgüçülüklə başlayacaq. Bundan sonra Grand Palais və Champs-Elysees adalarının yanında baş tutacaq 40 kilometrlik velosiped yarışı keçiriləcək. Yarış Parisin tam mərkəzində 10 kilometrlik yarışla başa çatacaq.

Qarışıq estafet dörd idmançının - iki kişi və iki qadının iştirakını nəzərdə tutur. Əvvəlcə komandanın hər bir üzvü 300 metr üzür, sonra 5,8 kilometrlik velosiped yarışı başlayır, daha sonra isə 1,8 kilometr məsafəyə yürüş başlayır.Beləliklə, Paris Olimpiadası Fransanın səriştəsiz təşkilatçıları tərəfindən problemlərlə doludur. Siyasi oriyentasiyalı bu olimpiadada təşkilatçıların iştirakçı ölkələrin idmançıları arasında ayrıseçkilik etməsi də rəzilliyin növbəti nümayişi kimi qəbul edilməlidir. Məsələ burasındadır ki, ABŞ və Yaponiyanın idmançılarına qələbədən sonra bayraqla yürüşə icazə verildiyi halda Azərbaycan və Qazaxıstan idmançılarının əllərindən bayraqlar alınıb.

**V.VƏLİYEV**

MÜNASİBƏT





**"Ermənistan Sovet dövləti çökən ərəfədə Azərbaycan torpaqlarını işğal etdi. Eyni zamanda Ermənistan Respublikası deyilən ərazidə 100 minlərlə azərbaycanlını deportasiya etdi. Əmlaklarını əllərindən aldı, özlərinə qarşı ağır işgəncələr həyata keçirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Anar İsgəndərov deyib.**

# "Sülh danışıqları ən çox Ermənistana lazımdır"

O bildirib ki, çox təəssüflər olsun ki, bu hadisələr dünyanın gözü qarşısında baş verdi: "Amma bu gün özünü dünyanın demokratiya beşiyi adlandırılan dövlətlər, özünü dünyanın "ən nüfuzlu təşkilatı" adlandıranlar bu faicə, işğala biganə qaldılar. Bu, uzun illər davam etdi və uzun illər ərzində azərbaycanlılar birmənalı olaraq dərk etdilər ki, bu, ədalət deyilən şey azərbaycanlılara aid deyil. Azərbaycanlılar üçün dünya ədalət istəmir. Təbii ki, dünya deyiləndə bütün dövlətlər yox, amma əsas dövlətlər bu siyahıda idi. Azərbaycan birinci Qarabağ müharibəsindən nəticə çıxardı, səhvlərini təhlil etdi, ordusu ilə bağlı boşluqları aradan qaldırdı, ən müasir silah növləri ilə bağlı məsələləri həll etdi. Bu, Azərbaycanın dövlət başçısı Ali Baş Komandan İlham Əliyevin ən böyük uğurlu siyasətinin bünövrəsi oldu. Qısa müddət ərzində hər şeyi Azərbaycan torpaqlarını düşməndən azad etmək üçün bu məsələyə cəlb etdi və istədiyinə çatdı. Ermənistanı darmadağın etdi və Ermənistanı müdafiə edən dövlətlərin də arzu və istəkləri ürəklərində qaldı. Həttabu qələbə o qədər böyük oldu ki, Fransa kimi Avropanın mərkəzində yerləşən dövlət, bu dövlətin başçısı, onun parlamenti hələ də bu ağrını, dərdi unuda bilmir. Bu dərdlə də yəqin ki, gedəcək.



Sovet dövləti çökən ərəfədə Ermənistan yeni konstitusiyasını qəbul edərkən bu konstitusiyada qeyd etdi ki, Azərbaycan və Türkiyə Cümhuriyyəti torpaqları, guya, Ermənistan torpaqlarıdır. Bu gün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi məsələsi reallaşarkən Azərbaycan tərəfinin ən böyük tələbi konstitusiyada boş, mənasız və haqqı olmayan müddəaların çıxarılmasıdır. Ancaq Ermənistan bunu ləngidir. Azərbaycan başa düşür ki, Ermənistan hər gün qucaq dəyişir. Avropa Birliyi, Fransa, ABŞ və başqa dövlətlər bura aiddir. Amma nəticə olaraq Azərbaycan bu müqavilənin bağlanmasını tələb edir. Əgər düşmən bu müqaviləni imzalamasa, düşüncəsində yenidən müəyyən dövlətlərin şirnikləndirici fikirləri olsa, Azərbaycan tərəfi, Azərbaycanın dövlət başçısı bunu birmənalı olaraq elan etdi ki, bütün məsuliyyət onda Ermənistanın üzərinə düşür. Təbii ki, Azərbaycan Qərbi Azərbaycanla bağlı bu düşüncədə deyil ki, o da öz konstitusiyasına görə bu günkü Ermənistan Respublikasının azərbaycanlılara məxsus olan ərazilərini öz konstitusiyasına salsın".

"Azərbaycan sivil, demokratik dövlətdir. Dünyada bu imici qazanıb və Ermənistan kimi işğalçı imicini qazanmayıb ki, qeyri-sivil yolla torpaq iddiasında olsun. Azərbaycan Qərbi Azərbaycanla bağlı istəyir ki, tarix boyu bu ərazidə yaşayan azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtsın, Ermənistan vətəndaşı kimi fəaliyyət göstərsin, öz ev-eşiklərinin sahibi olsunlar. Hətta bu günə qədər o da məlumdur ki, oradan qovulan azərbaycanlı əhalinin evlərinin 70-80%-i boşdur. Yəni Ermənistan, hətta bu kəndlərdən istifadə etmək gücündə deyil. Amma sülh danışıqları ən çox Ermənistana lazımdır. Çünki Ermənistanın taleyi təhlükə altındadır. Ona görə də Fransa başda olmaqla bu dövlətlər Ermənistanı nə qədər çox sevsələr, ona dərin məhəbbət izhar etsələr də, yaddan çıxarmamaq lazımdır ki, Ermənistan Azərbaycanla sərhəddir və Ermənistan öz təhlükəsizliyini təmin etmək üçün Azərbaycanla bu danışıqları uğurla davam etdirməli və sona çatdırmalıdır. Hər hansı bir bəhanə ilə danışıqları uzatmaq Ermənistana heç nə, başucalığı gətirmir. Ermənistan bu sülh müqaviləsini imzalamağı gecikdirməklə qazandığı heç nədir. Bu mənada Azərbaycan bölgənin güclü dövlətidir, siyasəti uğurludur, iqtisadiyyatı güclüdür, ordusu güclüdür. Ona görə də Ermənistan bu qeyd etdiklərimin hər birindən nəticə çıxarmalıdır" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

# Bitməyən qovğa və ya mahiyyəti anlaşılmayan hərəkat - FEMİNİZM

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb*







***Feminizm və feministlər bu gün çox müzakirə edilən mövzulardandır, insanlar onların məqsədlərini və istəklərini birmənalı qarşılamır. Bunun bir səbəbi feminizmin ifrat dərəcədə istiqamət dəyişdirməsidirsə, digər səbəbi də özünü feminist adlandıranların, sözün əsl mənasında, ”kişi düşməni”nə çevrilməsidir.***

Feminizm sözü həm latınca ”femina”, yəni ”qadın” sözündən, həm də ”Femida” sözündən qaynaqlanır, qədim yunan mifologiyasına görə, Zefsin həyat yoldaşı olan ilahənin adı Femida olub. Qeyd edək ki, feminizm XVIII əsrdə əvvəlcə Şimali Amerikada, sonralar isə müstəqillik uğrunda mübarizə illərində, 1775-1783-cü illərdə ”Böyük Fransız inqilabı” zamanı Fransada yaranan qadın hərəkatı olub. Həmin illərdə feminizm hərəkatına qoşulan qadınlar, ilk növbədə, haqq-ədalətin bərqərar olması üçün və qadın haqlarının heç bir halda pozulmaması naminə fərqli qadın təşkilatlarında birləşməyə başladılar.

Amma maraqlıdır ki, o vaxtlar bu hərəkatın adı ”feminizm” deyildi, bu ad hərəkata yalnız çılğın və qorxmaz fransız qadın yazıçısı Olimpiya de Qucun ”Qadınların hüquq deklorasiyası”ından sonra ona haqq verən və yazıçının ətrafında birləşən qadınlara ”feministlər” deməyə başladılar. Çünki yazıçı öz yazısında qadının da ”feme”, yəni insan olduğunu deyirdi. Bu gün mədəniyyət beşiyi kimi sırınan o torpaqlarda bir vaxtlar qadının insan sayılmadığını, o qadınların bunun üçün mübarizə aparması nə qədər acıdır, elə deyilmi?

Lakin maraqlı olan bir şey də var, bütün bu sadaladıqlarımız feminizmin yalnız görünən tərəfidir. Tarixi mənbələrdə yazılır ki, kişi cinsindən olan fərdlərdə ikinci dərəcəli qadın cinsiyyəti orqanlarının inkişaf etməsi prosesi feminizasiya adlanır. Eyni zamanda feministliyi təkcə insanda deyil, eyni zamanda quşlarda və heyvanlarda müşahidə etmək olar. Bizim yazımızla bir o qədər əlaqəsi olmasa da qeyd etməliyik ki, feminizasiyanın əksi də var, o ”maskulinizasiya” adlanır. Maskulinizasiya qadın cinsindən olan fərdlərdə ikinci dərəcəli kişi cinsiyyət orqanlarının inkişafı prosesidir.

Feminizmin bir problem olaraq tarixən həll edilməmiş qalması son dövrlərdə ona yardımçı sahələrin də yaranmasına səbəb oldu. ”Gender” proqramı bu baxımdan ən çox uğur qazanandır. Bu proqram feminizmin dayaqlarını, özülünü araşdırmağa və həlli istiqmətində müəyyən nailiyyətlər əldə etməyə stimul verdi.

Əgər kimsə feminizmin mahiyyətini sizə tam olaraq anlatmaq fikrinə düşsə, inanmayın, çünki bu hərəkat sözün bütün mənalarında qarışıq bir durumdur. Hətta feministləri bəzən bioloji və psixi pozğunluqları olan kəslər də adlandırırlar. Hətta bir çox feminist qadının ərə getməsini, uşaq doğmasını köləlik hesab edir. Feministlər düşünürlər ki, cəmiyyətin kişi və qadına münasibətdə tətbiq etdiyi rasional nəzarət sxemi bir-birindən fərqlənir, kişilərə birincilik tanınır, qadın mənəviyyatı təmin olunmamış qalır. Elə bu səbəbdən də feminizmin məqsədi, qadın mənəviyyatının ”susmaq sferasından” birdəfəlik çıxarılması və kişi ilə eyni cərgədə, eyni statustda qərarlaşmasıdır.

Bir az öncə qeyd etdiyimiz kimi, feminizm o qədər qəliz və həll olunmamış mövzudur ki, onun öz daxilində bir neçə qola ayrılması da bunu təsdiq edir. Feminizmin bu qollarından olan ”anarxofeminizm”, ”konservativ feminizm”, ”humanist feminizm” az tanınıb. Amma bəzi qismi isə bu gün dünyada, eləcə də Azərbaycanda kifayət qədər geniş arenada müzakirə olunandır - ”burjua feminizmi”, ”radikal feminizm”, ”liberal feminizm”, ”qara feminizm” də bu qismə aid edilir.



Sosioloqlar, adətən, belə hərəkatların öz daxilində bir neçə qola ayrılmasını da problemli olması ilə əlaqələndirirlər. Çünki hərəkatın qəlizliyi onun bir aspektdən həll edilməsinin mümkün olmamasından xəbər verir ki, bunun da altından hərəkatı bir neçə qola bölməklə çıxırlar, amma yenə də feminizm anlayışını tam olaraq çözə bilmirlər, çünki hər qola inanların doğruları, amalları fərqli olur.

Yeri gəlmişkən, bir neçə il bundan öncə Bakıda feministlərin bir yürüşü keçirildi. Buna feminizm yürüşü əvəzinə ”əxlaqsızlığın leqallaşdırılmasının tələb edilməsi” desək, daha düzgün ifadə etmiş olarıq. Çünki o yürüşdə özünə feminist deyən onlarla qız-qadın ”vagina mənimdir, kimə istəsəm verərəm” kimi şüarlarla azadlıqlarının ölçüsünü göstərmiş oldular. Azadlığı önünə gələnlə cinsi münasibət yaşamaq qədər ucuzlaşdıran yerli feministlər feminizm anlayışını nə qədər doğru anlayıblar? Cinsi istəyini təmin etmək üçün hissiz-duyğusuz cinsi münasibət yaşayan qadın azad deyil, bunun adı başqadır və yazmaq etik olmaz.

Ümumiyyətlə, həyatımızda teztez hansısa anlayışları səhv qəbul edirik və ya bəzi faktları həqiqətən də təhrif edirik.

Azadlıq və feminizm bu faktlardan yalnız ikisidir. Ölkəmizdə qadınların azadlığı anlayışı həmişə feminizm anlayışı ilə qoşa xatırlanır. Feminizmin kişi düşmənçiliyi kimi tanındığı günümüzdə qadının hansı haqqı məhdudlaşdırılıb deyə sual versək, çoxumuz durub düşünərik. Axı müasir cəmiyyətimizdə qadınların kişilərdən bir çox üstünlüyü də təmin edilib.

Hakimiyyət anlayışı cəmiyyətin bütün təbəqələrində və bütün quruluşlarda mövcud sistemdir. Dövlətdə hakimiyyət olur, cəmiyyətdə hakim qüvvə olur, ailədə hakimiyyət uğrunda qovğalar olur. Çünki hakimiyyət, ən sadə formada ifadə etsək, bir qrupu və ya bir şəxsi cəmiyyətin digər hissəsindən üstün edən güc deməkdir. Qadınlar qarşı cinsdən heç bir əskikləri olmadığı halda ikinci planda qalmaq istəmirlər, ailədə, cəmiyyətdə onların fikri də dinlənilsin, dəyər verilsin istəyirlər və haqlıdırlar. Lakin bunun adı feminizm deyil, olmamalıdır. Bu, bərabərlikdir, sadəcə, bərabərlik.



***Lalə Mehralı***

# Alimlərdən XƏBƏRDARLIQ: Göz rəngləri bu xəstəliklərin carçısıdır



**Alimlər xəbərdarlıq edirlər ki, göz rəngləri müəyyən xəstəliklərin carçısı ola bilər. Xarici medianın yazdığına görə, Almaniyada göz rəngləri ilə bağlı aparılan araşdırmanın nəticələri hər kəsi təəccübləndirib.**

Göz rəngindəki fərqlər bədənimizdə müəyyən xəstəliklərə qarşı həssaslıq ortaya qoyub. Alman Oftalmologiya Assosiasiyası bununla bağlı araşdırma apararaq belə bir nəticəyə gəlib. Göz rəngindəki fərqlər bəzi xəstəlikləri aşkar edə bilər. Araşdırmaya görə, gözlərdəki piqment nisbətinin izlənilməsi lazım olan bəzi xüsusiyyətləri təmin edir. Göz rəngini təyin edən melanin nisbəti göz xəstəliklərində mühüm rol oynayır. Yaşıl və mavi kimi açıq rənglər işığa qarşı həssaslığın artması, şiş riski və retinanın kalsifikasiyası ilə əlaqələndirilir. Qəhvəyi və ya tünd gözlü insanlarda katarakt və buynuz qişa nəqlindən imtina nisbəti daha yüksəkdir.

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Şahzadə Diananın məktubları hərraca çıxarılacaq



Şahzadə Diananın keçmiş xadiməsi Violet Kollisona ünvanladığı əlyazma məktubları və açıqcalardan bir neçəsi "Sworder's" auksionunda hərraca çıxarılacaq. Diananın "Kolli" ləqəbi ilə çağırdığı Kollison şahzadənin anasının Sandrinhem malikanəsindəki "Park House"dakı ailə evində baş xadimə vəzifəsində çalışırdı. Hərrac kolleksiyasına Kollisonun Diananın 1981-ci ildə Kral III Çarlzla toyuna dəvət kartı və şahzadənin 1981-1994-cü illər arasında göndərdiyi Milad təbrikləri daxildir. Diana ilə Çarlzın 1981-ci ildə toy portretini əks etdirən bayram kartında "Milad və Yeni il münasibətilə ən xoş arzular" sözləri var. Şahzadə bu qeydi belə imzalayıb: "Dianadan sevgi ilə".

1996-cı ildə Çarlzdan boşandıqdan sonra Diananın Milad kartlarında yalnız oğulları şahzadə Uilyam və şahzadə Harri ilə çəkdirdiyi fotoşəkillər var idi. Sonuncu bayram təbrikində yazılıb: "Sizin Milad bayramınız və Yeni iliniz mübarək olsun. 1994" - "Dianadan sevgilərlə". Məktubların qiyməti 200 funt-sterlinqdən 1200 funt-sterlinqə (257 dollardan 1543 dollara) qədər dəyişir.

## "Bakcell" ilə "Dream Fest" həyəcanı baş tutub




***Ölkənin ən böyük özəl operatoru "Bakcell""Dream Fest" Beynəlxalq Musiqi Festivalının premium sponsoru olub. Festival ərzində iştirakçılar "Bakcell" stendinə yaxınlaşaraq şirkətin yeni və innovativ məhsulları barədə məlumat alıblar, xüsusi hədiyyələr qazanmaq imkanı əldə ediblər. Bundan əlavə, şirkət festivalda çıxış edən dünya ulduzlarına "Bakcell" nömrələri təqdim edərək onları ölkəmizdə olduqları müddətdə yüksəkkeyfiyyətli mobil rabitə xidmətləri ilə təmin edib.***

Qeyd edək ki, 23-28 iyul tarixlərindəbaş tutan "Dream Fest"festivalında ABŞ, MDB və Avropa İttifaqı, , Böyük Britaniya, Kanada və Türkiyə kimi ölkələrdən 100-ə yaxınmüğənninin çıxışı ilə yadda qalıb. Altı gün ərzində tamaşaçılar Xəzər dənizi sahilində açıq havada möhtəşəm şou və musiqidən həzz alıblar.

Qeyd edək ki, gələcəyə hədəflənən yeni brend strategiyası ilə "Bakcell" ölkəmizdə abunəçilərə innovativ xidmət və məhsullar təqdim edir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verəcək.

## ELAN

Bakı Hərbi Prokurorunun böyük köməkçisi, ədliyyə mayoru Vəliyev Orxan Elgiz oğluna Baş prokuror Kamran Əliyev tərəfindən verilmiş 460-22 nömrəli xidməti vəsiqə itirilmişdir. Tapan şəxslərdən xahiş olunur ki, Baş prokurorluğun kadrlar şöbəsinə təhvil versin. Əks halda vəsiqə etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Naxçıvan şəhər, Ə.Ağayev adına internat məktəbin məzunları tanınmış pedaqoq, yüzlərlə şagirdin təhsil almasında əməyi olan çox dəyərli

**Qonça Həsən qızı Tarverdiyevanın**

vəfatından kədərləndiklərini bildirir, əzizlərinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700